Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

5
İYUN
2020-ci il
№ 89 (4220)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# İSRAİL İKİ İL ƏVVƏL AZƏRBAYCANA SATDIĞI RAKETLƏRİ İNDİ SINAQDAN KEÇİRİR? - YENİ ERMƏNİ TƏXRİBATININ MAHİYYƏTİ...

■ səh. 8 ■

"Ermənistan dövləti tarixi Azərbaycan əraziləridir" - Ermənistan təcavüzünün ifşasında Prezident Əliyevin bəyanatının gücü... ■ səh. 6 ■

Separatçı rejimin Dağlıq Qarabağda qanunsuz seçkisinə AŞPA-nın yolverilməz münasibəti yenidən gündəmdə - Əliyev hücum diplomatiyasını davam etdirir... ■ səh. 7 ■

AŞPA-nın Azərbaycana münasibətində əsl insan haqları ilə heç bir bağlılıq yoxdur - Prezident AŞPA-nı çətin sualla ifşa etdi.... ■ səh. 8 ■

Narışkin Azərbaycan Prezidentinə yazdı - İki ölkənin xüsusi xidmətlərinin əməkdaşlığının regional təhlükəsizlikdə rolu... ■ səh. 4 ■

Ermənistanın eks baş naziri "Azərbaycanın yerində olsaydım" təhrikçi mesajı ilə nə demək istədi... Paşinyanın "Kazan formulu"na keçid üçün öz hesabları var?.. ■ səh. 9 ■

Koronavirus Ermənistanı həm daxildən, həm də xaricdən çökdürür - Paşinyanın "yoluxma oyunu" isə onun ölkəsindəki olan-qalan nüfuzunu da yerlə bir edir ■ səh. 12 ■

Uğursuz faiz siyasəti üzündən əhali əmanətlərini banklardan qaçırır... ■ səh. 14 ■

Uşaq Psixologiya Mərkəzində koronavirus? - Qadın valideyn "Narınc"a qarşı iddialıdır ■ səh. 15 ■



■ səh. 5 ■

## 1918-ci ildə İrəvanı Ermənistana verməmək olardımı - Əliyev tarix müzakirəsi başlatdı, alimlər nə deyir...





Azərbaycanda həftəsonu karantin qaydalarının sərtləşdirilməsi rejiminin tətbiqinə başlanıldı - Əli Əsədov xalqa müraciət etdi ■ səh. 2 ■

İntensivləşən Qarabağ müharibəsi çağırışlarına Prezidentdən dəqiq cavab - gücümüz və uyğun geosiyasi vəziyyət... ■ səh. 3 ■

Bir uçurulmuş abidənin şəkli ilə ermənilərə böyük zərbə vurmaq olar - Prezident «150 il» şəkli üstündə əhəmiyyətli perspektiv göstərdi... ■ səh. 4 ■

■ səh. 3 ■ Azərbaycanın heç vaxt indiki qədər olmayan gücü, müstəqilliyi və azadlığı - Prezident nələri nəzərdə tutur...



■ səh. 10 ■ Ermənistanın Azərbaycana "toponim təcavüzü"nü tam ifadə edə bilmişikmi - Prezident Qarakilsə məsələsi ilə bağlı böyük problemə toxundu



■ səh. 13 ■ Həftə sonları Azərbaycanda sərt karantin qaydalarını artan vətəndaş məsuliyyətsizliyi yaratdı...



■ səh. 13 ■ Azərbaycanda koronavirusla yeni mübarizə taktikası - bəzi kəndlər də təcrid edilə bilər...



■ səh. 15 ■ Özündə və ailə üzvündə koronavirus aşkarlanan abituriyentin imtahan nəticələrinin ləğvi düzgündürmü...





# Azərbaycanda həftəsonu karantin qaydalarının sərtləşdirilməsi rejiminin tətbiqinə başlanıldı - Əli Əsədov xalqa müraciət etdi

**Azərbaycan Respublikasının Baş naziri, Operativ Qərargahın rəhbəri Əli Əsədov iyunun 4-də ölkəmizdə koronavirusa yoluxma hallarının kəskin artması ilə bağlı əhaliyə müraciət edib.**

Baki-xeber.com xəbər verir ki müraciətdə deyilir:

"Hörmətli həmvətənlər! Məlum olduğu kimi, 2020-ci ilin əvvəlindən başlayaraq dünyada cərəyan edən və fevral ayından Azərbaycana da idxal olunan koronavirus infeksiyasının qarşısının alınması məqsədilə dövlət və hökumət tərəfindən ilk günlərdən təxirəsalınmaz və qətiyyətli tədbirlər görülüb və görülməkdədir. Profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli Sərəncamı ilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Operativ Qərargah "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qanuna uyğun olaraq martın 24-dən aprelin 20-dək Azərbaycanda xüsusi karantin rejimi elan etmişdir, kütləvi tədbirlər ləğv edildi, ölkəmizin quru sərhədləri bağlanıldı, şəhər və rayonlararası gediş-gəliş dayandırıldı. Xəstəliklə mübarizənin gücləndirilməsi məqsədilə xüsusi karantin rejimi mərhələli şəkildə sərtləşdirildi. Bu müddət ərzində epidemiyanın Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə dövlət başçısının tapşırıqlarına uyğun olaraq bütün sahələr və istiqamətlər üzrə lazımi tədbirlər görülüb və görülməkdədir. Atılmış bütün addımların əsas məqsədi vətəndaşlarımızın sağlamlığının və həyatının qorunmasıdır.

Görülmüş tədbirlər müsbət nəticələr vermişdir və bu, statistik göstəricilərdə də öz əksini tapmışdır. Həkimlərin tövsiyələri və statistik göstəricilərə əsaslanaraq, aprelin 27-dən Operativ Qərargah mərhələli şəkildə yumşaldılma tədbirlərinə başlamışdır. Karantin dövrü ərzində istər həkimlərin, istərsə də digər rəsmi şəxslərin müraciətlərində mütləq olaraq sanitariya-epidemioloji və gigiyenik qaydalara riayət edilməsi əsas tələb kimi qoyulmuşdur. Əhalimizin böyük hissəsi görülmüş işləri yüksək qiymətləndirərək həmrəylik göstərdi və ilkin olaraq həmin tövsiyələrə və tələblərə riayət edirdi. Lakin təəssüflə qeyd etməliyəm ki, son yumşaldılma tədbirləri zamanı vətəndaşlarımızın böyük bir hissəsi müəyyən olunmuş qaydalara və təcrid tövsiyələrinə riayət etmədi. Bunun nəticəsi olaraq son günlər infeksiyaya yoluxanların sayı kəskin artmışdır.

Bunlara əsaslanaraq və tibbi qərargahın müraciəti ilə Operativ Qərargah bu gün qərar qəbul edib. Qərara əsasən, 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək aktiv yoluxma hallarındakı artım səbəbindən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda sərt karantin rejimi tətbiq olunacaq. Qərarda göstərilən tələblərə riayət olunması məcburidir və mütləqdir.

Xəstəliyin yoluxma halları digər şəhər və bölgələrdə artacağı hallarda sərt tədbirlər gələcəkdə həmin bölgələrdə də təkrarən tətbiq olunacaqdır.

Qərarın icra olunmasına nəzarət Daxili İşlər Nazirliyinə həvalə olunmuşdur.

Sonda bir daha bildirmək istəyirəm ki, görülən bütün tədbirlərin ali məqsədi vətəndaşlarımızın sağlamlığının və həyatının qorunmasıdır".

# Altı-bazar sərt karantin qaydaları detallarına qədər açıqlandı, lazım gəlsə, həftələrlə təkrar oluna bilər...

**Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah koronavirusla bağlı KİV nümayəndələri üçün brifinq keçirib. Brifinqdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı, TƏBİB-in şöbə müdiri Yaqut Qarayeva, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı jurnalistləri maraqlandıran suallara cavab verib.**

### Növbəti həftələrdə də 2-3 gün günlük qapanmalar ola bilər

TƏBİB sədri Ramin Bayramlı bildirib ki, ola bilsin ki, növbəti həftələrdə bayram günlərinə yaxın həftə sonları birləşdirlməklə 2-3 gün günlük qapanmalar tətbiq edilsin. Onun sözlərinə görə, COVID-19 virusunun yayılmasının azaldılması üçün karantin qaydalarının müəyyən günlərdə sərtləşdirilməsi qərara alınıb. Bununla əlaqədar həftənin sonunda Bakı, Gəncə, Lənkəran, Sumqayıt şəhərləri və Abşeron rayonunda əhalinin yaşayış yerlərini tərk etməsi qadağan edilir.

R.Bayramlı qeyd edib ki, fəaliyyətinə icazə verilən qurumlar barədə müvafiq məlumatlar müəssisələrə göndərilib.

TƏBİB sədri əlavə edib ki, bu gün ölkədə COVİD-19-la bağlı 7047 test aparılıb, 262 yeni yoluxma faktı aşkarlanıb, iki nəfər dünyasını dəyişib. Indiyədək ümumilikdə 78 nəfər bu xəstəlikdən vəfat edib. Hazırda 2707 nəfər müalicəsini davam etdirir. Bu gün 100 nəfər xəstə reanimasiyada müalicə edilir, onların 21-i süni tənəffüs aparatına qoşulub.

### Pandemiyanın başlanğıc mərhələsindəyik

R.Bayramlı hazırda pandemiyanın başlanğıc mərhələsində olduğumuzu deyib. Onun sözlərinə görə, COVİD-19-un yayılmasının qarşısının alınması üçün vətəndaşların yalnız qısamüddətli qapanmalarda olması kifayət deyil, insanlar tələb olunan qaydalara da əməl etməlidirlər: "Bəzi vətəndaşlar bu halı ikinci dalğa kimi qəbul edirlər. Bu belə deyil, hazırda pandemiyanın başlanğıc mərhələsindəyik".

### ...apteklər və marketlər tam bağlanacaq...

R.Bayramlı bildirib ki, həftə sonunda bütün əczaçılıq subyektləri və marketlər tam qapadılacaq. Onun sözlərinə görə, cümə günü dövlət qurumlarında iş saatı 14.00-da bitəcək:"Vətəndaşlar bunu bir bayram kimi qəbul etməsinlər. Bu, vətəndaşlara əlavə vaxt kimi verilir. Həftə sonunda bütün əczaçılıq subyektləri və marketlər tam qapadılacaq. Vətəndaşlar arasında hər hansı təşviş yoxdur. Vətəndaşların zəruri ehtiyaclarını ödəmək üçün bu gün və sabah kifayət qədər vaxtları var".

R.Bayramlı qeyd edib ki, həftə sonu belə qapanmalar tətbiq edilə bilər.

R.Bayramlı deyib ki, həftəsonu bəzi dövlət qurumlarının işçiləri məhdud sayda işə çıxacaqlar. Onun sözlərinə görə, qurumlar məhdud sayda işçilərin işə çıxması üçün icaze.gov.az saytından icazə almalıdır. İşləməsinə icazə verilən şəxslər xidməti maşınlardan istifadə edə bilərlər.

### Dünyasını dəyişən insanların koronavirusdan ölməsi barədə şayiələr...

"Dünyasını dəyişən insanların koronavirusdan ölməsi barədə arayışların verilməsi ilə bağlı şayiələr yaranıb. Biz bu məlumatları araşdırmışıq. Yayılan məlumatlarda arayışların təcili tibbi yardım xidmətinin işçiləri tərəfindən verildiyi bildirilir" deyən R.Bayramlının sözlərinə görə, bu məlumatlar doğru deyil və şayiədir:"Onu da nəzərə almaq lazımdır ki, COVİD-19-un diaqnozunun qoyulması o qədər də asan məsələ deyil".

### Jurnalistlər həftə sonları necə işləyəcək...

TƏBİB sədri bildirib ki, xəbər saytlarının işçilərinin evdə çalışması tövsiyə edilir. O tövsiyə edib ki, həftə sonunda televiziya qurumları da məhdud sayda işçi dəvət etsinlər. Verilişlərə dəvət ediləcək şəxslərdən müsahibələr isə onlayn qaydada alınsın.

### İnsanlar qaydalara əməl etməyə başlayıb

"Dünəndən insanların qaydalara əməl etməsinin şahidi oluruq" - deyən R.Bayramlının sözlərinə görə, bu sevindiricidir:"İnsanlar qaydalara əməl edərsə, biz həftə sonlarında qapanmaya getməyə də bilərik".

R.Bayramlı "təcrübələr göstərir ki, qısamüddətli qapanma dövrünün də effekti olur, belə qapanmalardan 7-10 gün sonra statistik göstəricilərin necə dəyişdiyini görə bilərik" deyib. TƏBİB sədri həftəsonu tətbiq edilən bu qapanmaların xeyrinin olacağı qənaətindədir.




R.Bayramlı qeyd edib ki, polislər maskalardan istifadə ilə bağlı qaydalara əməl edirlər:"Onlar qaydalara nəzarət üçün ciddi addımlar atacaqlar".

TƏBİB sədri bildirib ki, xidməti avtomobillə bağlı daxili imkanları olmayan müəssisələr işçilərinin işə gəlməsi üçün Bakı Nəqliyyat Agentliyinə müraciət edə bilərlər. Onun sözlərinə görə, bu məsələdə qurumların daxili resurslarına üstünlük verilməlidir:"Piyada gələ bilən işçilərə üstünlük verilməlidir. Zəruri olduqda iş yeri Bakı Nəqliyyat Agentıiyi ilə müzakirə apara bilər".

R.Bayramlı qeyd edib ki, həftə sonlarında işə gələcək bütün qurumların işçilərinə rəsmi qaydada icazə alınmalıdır.

### Modul tipli xəstəxanalarda 2000-ə qədər çarpayı fondu olacaq

TƏBİB sədri qeyd edib ki, xüsusi rejimli xəstəxanalarda 5000-dən çox çarpayı var. Onun sözlərinə görə, modul tipli xəstəxanalarda 2000-ə qədər çarpayı fondu olacaq:"Bu gün 2500 aktiv xəstə sayı var. Amma xəstələrin böyük əksəriyyəti Bakıda və narıncı əraziyə düşən yerlərdəki xəstəxanalarda yerləşdiyi üçün lokalizasiyaya yerləşən tibb müəssisələrinin üzərinə düşən yük artır".

### Daxili uçuşların yaxın günlərdə bərpası gündəmdə...

R.Bayramlı daxili uçuşların yaxın günlərdə bərpasının gündəmdə olduğunu da deyib. Onun sözlərinə görə, bununla bağlı metodiki göstərişlər hazırlanaraq təsdiq edilib.

Beynəlxalq ucuşlara gəldikdə, R.Bayramlı qeyd edib ki, bir sıra beynəlxalq hava nəqliyyatı qurumları bu barədə məlumat veriblər:"Bu istiqamətdə müzakirələr davam edir. Güman edirəm ki, biz bu məsələni 1 iyuladək gecikdirə bilərik".

# İntensivləşən Qarabağ müharibəsi çağırışlarına Prezidentdən dəqiq cavab - gücümüz və uyğun geosiyasi vəziyyət...

**"Bz güc toplayırıq, daha da güclü olmalıyıq və olacağıq. Eyni zamanda, geosiyasi vəziyyət elə olmalıdır ki, bizim bütün addımlarımız uğurla nəticələnsin". Bunu Prezident İlham Əliyev Tərtər Olimpiya İdman Kompleksi ilə tanışlıqdan sonra rayonun bir qrup idmançısı ilə görüşündə deyib.**

*"Geosiyasi vəziyyəti nəzərə almadan hansısa hərbi addımların atılması pis nəticələnə bilər"*

***Mübariz Əhmədoğlu:** "Bəzi fürsətbazlar yaranmış vəziyyətdən istifadə edib Qarabağ məsələsində diletant fikirlərlə çıxış edirlər"*



Ölkə başçısının sözlərinə görə, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir: "Bunun həllinin bir yolu var, o da ölkəmizin ərazi bütövlüyünün bərpasıdır. Başqa yol yoxdur. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Mən bu yaxınlarda demişəm, biz güc toplayırıq, daha da güclü olmalıyıq və olacağıq. Eyni zamanda, geosiyasi vəziyyət elə olmalıdır ki, bizim bütün addımlarımız uğurla nəticələnsin. Mən demişəm ki, Qarabağ Azərbaycandır və bir daha bunu təkrarlamaq istəyirəm: Qarabağ və onun tərkib hissəsi olan Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi. Bütün Azərbaycan ictimaiyyəti, xalqımız bu mövqeyi dəstəkləyir. Mənim apardığım siyasəti, o cümlədən bu məsələ ilə bağlı apardığım siyasəti dəstəkləyir".

Son dövrlər Qarabağ məsələsi ilə bağlı bəziləri yersiz formada müharibə çağırışları ilə çıxış edir. Məsələnin məsuliyyətini dərindən dərk etmədən hərbi əməliyyatlara başlamağı zəruri sayırlar. Halbuki, buna hərtərəfli zəmin olmalıdır. O baxımdan Prezidentin məlum yanaşması bir növ belə çağırışlara tutarlı cavabdır.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirir?

Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun fikrincə, ölkə başçısının münaqişənin tənzimlənməsi ilə bağlı yanaşması tamamilə reallığa əsaslanır:"Məsələ ondadır ki, bəzi fürsətbazlar yaranmış vəziyyətdən istifadə edib Qarabağ məsələsində diletant fikirlərlə çıxış edirlər. Bununla ölkə daxilində gərginlik yaratmaq istəyirlər. Prezidentin məlum diplomatik açıqlaması yerində olmaqla yanaşı, ölkə rəsmiləri bu yanaşmanı müəyyən qədər camaata izah etməlidilər. Bununla bağlı ekspertlər səviyyəsində müəyyən materiallar hazırlanmalıdır. Çünki bəzi fürsətbazlar populist açıqlamalarla çıxış edərək müharibə çağırışları edirlər. İctimayəti yanlış yola istiqamətləndirmək məqsədi güdürlər. Azərbaycan Prezidenti Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində çox böyük uğur əldə edib. Yəni beynəlxalq hüquq bizim xeyrimizədir. Məsələn, ATƏT-in Minsk Qrupunun 9 mart 2019-cu il bəyanatı bizim xeyrimizədir.

Tələb olunur ki, ətraf 7 rayondan erməni ordusu çıxsın, məcburi köçkünlər hissə-hissə öz torpaqlarına qayıtsınlar. Bütün bunlar bizim diplomatik uğurumuzdur. Müharibəyə başlamaqla bütün bunlar sual altına düşə bilər. Geosiyasi vəziyyəti nəzərə almadan hansısa hərbi addımların atılması pis nəticələnə bilər. Bəziləri pafosla deyir ki, niyə Şuşaya raket atılmır? Azərbaycan bu addımı atsa münaqişənin tənzimlənmə variantı əldən çıxa bilər. Ona görə də məsuliyyətsiz müharibə çağırışlarının əsası yoxdur".

***Vidadi ORDAHALLI***

# Azərbaycanın heç vaxt indiki qədər olmayan gücü, müstəqilliyi və azadlığı - Prezident nələri nəzərdə tutur...

**"Mən tam əminliklə deyə bilərəm ki, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü, indiki qədər müstəqil və azad olmamışdır". Məlum olduğu kimi, bunu Prezident İlham Əliyev Tərtər Olimpiya İdman Kompleksi ilə tanışlıqdan sonra rayonun bir qrup idmançısı ilə görüşündə çıxışı zamanı deyib.**



***Seyid Camal Əzimbəyli:** "Reallıq ondan ibarətdir ki, dünya gücləri ölkəmizlə hesablaşırlar"*

Ölkə başçısının fikrincə, Azərbaycanın bölgələrində idman qurğularının tikintisi geniş vüsət alıb: "Hesab edirəm ki, Azərbaycan bu parametr üzrə dünya miqyasında qabaqcıl yerlərdədir. Bölgələrdə tikilmiş Olimpiya komplekslərinin sayı artıq 46-ya çatıbdır. Onu da bildirməliyəm ki, 5 rayonda Olimpiya İdman komplekslərinin tikintisi davam edir. O layihələr də başa çatandan sonra, ümumiyyətlə, rayonlarda 51 idman kompleksimiz olacaqdır".

Prezident onu da qeyd edib ki, bütövlükdə ölkəmizin idman infrastrukturu istənilən beynəlxalq yarışın keçirilməsi üçün imkan yaradır:"Bakı şəhərində artıq iki çox böyük beynəlxalq idman yarışı keçirilib. Deyə bilərəm ki, Yay Olimpiya Oyunlarından sonra öz miqyasına görə Avropa Oyunları ikinci yeri tutur. Bildiyiniz kimi, Avropa Oyunları heç vaxt tarixdə keçirilməyib və birinci Avropa Oyunları məhz Azərbaycanda keçirilib. Çünki bir çox ölkələr bundan imtina edib, çünki bu bir yenilik idi. Bu gün müasir və müstəqil Azərbaycan dövləti ən yüksək zirvədədir. Mən tam əminliklə deyə bilərəm ki, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü, indiki qədər müstəqil və azad olmamışdır".

Bütün bunlarla yanaşı, ölkə başçısı "Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü, indiki qədər müstəqil və azad olmayıb" deməklə nələri nəzərdə tutur?

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, burada bir sıra məqamlardan söhbət gedir:"Əvvəla, Azərbaycan 90-cı illərin əvvəllərindəki ölkə deyil. Ötən illər ərzində ölkə xeyli güclənib. Xüsusən də İlham Əliyev prezident seçiləndən sonra Azərbaycanın qüdrəti daha da artıb. Ölkədə infrastruktur əsaslı şəkildə yenilənib. Əhalinin həyat səviyyəsi, rifahı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Böyük enerji və nəqliyyat layihələri reallaşdırılıb. Azərbaycan regionda arbitr rolunu oynayır. Ötən illər ərzində ordumuzun döyüş qabiliyyəti artıb. Silahlı Qüvvələrimiz ən müasir silahlarla təchiz olunub. 2016-cı ilin aprelində ordumuz cəbhədə bir sıra uğurlara imza atdı. Azərbaycan bir sıra beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir. Artıq beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsi ənənə halını alıb. Reallıq ondan ibarətdir ki, dünya gücləri ölkəmizlə hesablaşırlar. Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində böyük güc mərkəzlərinin maraqları Azərbaycanda toqquşmur.

*"Prezidentin apardığı uğurlu siyasət nəticəsində böyük güc mərkəzlərinin maraqları Azərbaycanda toqquşmur"*

**Koronavirus pandemiyası ilə əlaqədar əksər dünya ölkələri beynəlxalq maliyyə qurumlarına yardım üçün müraciət edib. Azərbaycan isə indiyə qədər belə bir müraciət etməyib. Əksinə, dövlətimiz bir sıra ölkələrə yardım edir. Hesab edirəm ki, bu və digər məsələlər Azərbaycanın gücünü, müstəqilliyini xeyli artırıb".**

***Vidadi ORDAHALLI***



## Narışkin Azərbaycan Prezidentinə yazdı - İki ölkənin xüsusi xidmətlərinin əməkdaşlığının regional təhlükəsizlikdə rolu...

***Elşən Həsənov:** "Çox istərdik ki, Azərbaycanı və regionu ciddi narahat edən erməni terrorizmi ilə mübarizədə də Rusiya səylərini əsirgəməsin"*

**Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkindən Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu gəlib. Təbrikdə deyilir: "Hörmətli İlham Heydər oğlu. Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi adından və şəxsən öz adımdan Sizi dövlət bayramınız - Azərbaycan Respublikası Günü münasibətilə təbrik edirəm.**

Hörmətli İlham Heydər oğlu, Sizə Azərbaycan xalqının rifahı naminə işinizdə uğurlar, möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq diləyirəm.

Bu xoş fürsətdən istifadə edib Sizə Rusiya Xarici Kəşfiyyat Xidmətinin və Azərbaycanın xüsusi xidmətlərinin dövlətlərimizin təhlükəsizliyinin təmin edilməsinə və milli mənafelərinin müdafiəsinə yönəlmiş qarşılıqlı fəaliyyətinə göstərdiyiniz diqqətə və dəstəyə görə minnətdarlığımı bildirmək istəyirəm".

Göründüyü kimi, təbrik məktubunda Narışkin iki ölkənin xüsusi xidmət orqanlarının qarşılıqlı fəaliyyətinin əhəmiyyətinə işarə edir. İki ölkənin xüsusi xidmətlərinin əməkdaşlığının regional təhlükəsizliyin təmin olunmasında hansı rolu var?

Təhlükəsizlik qurumlarının sabiq əməkdaşı Elşən Həsənov qəzetimizə açıqlamasında bildirdi ki, Azərbaycanın bu istiqamətdə MDB ölkələri və xüsusilə də Rusiya ilə sıx əməkdaşlığı var:"Təsadüfi deyil ki, MDB məkanında olan ölkələrin təhlükəsizliklə bağlı keçirdiyi tədbirlərdə ölkəmiz ən ali statusda təmsil olunur. Tədbirlər çərçivəsində Azərbaycan rəsmilərinin Rusiyanın xüsusi xidmət orqanlarının rəhbərləri ilə görüşlər keçiriklərinin şahidi oluruq. Bu qəbildən olan ikitərəfli görüşlərdə tərəflər arsında təhlükəsizlik sahəsində olan əməkdaşlığımızın genişlənməsi ilə bağlı razılaşmalar əldə edilir, bunun vacibliyi vurğulanır. Regional təhlükəsizlik məsələlərinə gəldikdə, təbii ki, Azərbaycanla Rusiyanın xidmətləri arasında ikitərəfli əlaqələr mövcuddur. Biz həm MDB, həm də digər məkanlarda uğurlu əməkdaşlıq edirik. Son vaxtlar Azərbaycan və Rusiyada bu yöndə aparılan birgə tədbirlər və onların uğurlu alınması göstərir ki, bizim məlumat mübadiləmiz var. Biz ümumi təhlükə hesab etdiyimiz məsələlərlə bağlı bir-birimizə ötürdüyümüz informasiyalar əsasında tədbirlər keçirə bilirik. Azərbaycan coğrafi mövqeyinə görə çox həssas nöqtədədir. Burada məlumatların toplanması mühüm əhəmiyyət kəsb edir. Bu da Rusiya və Azərbaycan arasında uğurla davam etdirilir. Bizim ümumi mübarizə apardığımız və real nəticələr əldə etdiyimiz sahələr narkotiklərin qanunsuz dövriyyəsi, terrorizm, qanunsuz pulların "yuyulması" və s. istiqamətindədir. Bu cinayətlərin həyata keçirilməsində hədəf kimi hər iki ölkənin ərazisi seçilir. Əldə olunan razılaşmaların ruhundan hiss edilir ki, bundan sonra da bizim təhlükəsizliyimizə olan təhdidlərin neytrallaşması daha da asanlaşacaq. Çox istərdik ki, Azərbaycanı və regionu ciddi narahat edən erməni terrorizmi ilə mübarizədə də Rusiya səylərini əsirgəməsin. Çünki bu amilin aradan qaldırılması isə bütün region və dünya üçün mühüm əhəmiyyət kəsb edir".

Ekspertin sözlərinə görə, hərbi təhlükəsizlik, hərbi-texniki problematika məsələləri kimi istiqamətlərdə, terrorizmlə mübarizə, informasiya və sənəd mübadiləsi məsələləri üzrə də çox səmərəli iş gedir, bütün hüquq-mühafizə strukturlarının və xüsusi xidmət idarələrinin xəttilə qarşılıqlı fəaliyyət həyata keçirilir ki, bunun da regional təhlükəsizlik üçün ciddi əhəmiyyəti var.

*Məhəmmədəli QƏRİBLİ*

# Bir uçurulmuş abidənin şəkli ilə ermənilərə böyük zərbə vurmaq olar - Prezident "150 il" şəkli üstündə əhəmiyyətli perspektiv göstərdi...

***Qasım Hacıyev:** "Bu çox ciddi fakt və arqumentdir, biz bu əsaslara söykənərək ermənilərə qarşı yeni elmi hücum kampaniyası həyata keçirməliyik"*

**Məlum olduğu kimi, Prezident İlham Əliyev Tərtər rayonuna səfəri zamanı bir sıra əhəmiyyətli obyektlərin açılış mərasimlərində iştirak edib. Prezident Tərtər Olimpiya Kompleksinin açılışında tariximizlə, tarixi torpaqlarımızla, eləcə də ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi ilə bağlı maraqlı və diqqətçəkən faktlar açıqlayıb.**

"...İndiki Ermənistan ərazisində tarixi Azərbaycan adları, şəhərlərin, kəndlərin adları dəyişdirilib. Bu adlar neçənci ildə dəyişdirilib? Ona görə biz deyəndə ki, indiki Ermənistan tarixi Azərbaycan torpağında yaradılıb, tam həqiqəti deyirik. Biz yaxşı bilirik ki, ermənilər bizim torpağımıza, o cümlədən, indiki Ermənistan ərazisinə XIX əsrin əvvəllərində köçürülüblər, Rus-İran müharibəsindən sonra.

Tərtərlilər yaxşı bilirlər və Azərbaycan xalqı da bilir ki, 1978-ci ildə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindəki kəndlərin birində ermənilərin bu bölgəyə gəlməsinin 150 illiyini əks etdirən abidə ucaldılıb. 1978-ci ildən 150 ili çıxın, deməli 1828-ci ildə gəliblər. Müharibə başlayan kimi o abidəni dağıdıblar, amma onun qalıqları qalıb və indi istənilən adam gedib baxa bilər. Onun şəkillərini də göstərmək lazımdır. Onlar gəlmədilər, Şərqi Anadoludan və İrandan bizim torpaqlarımıza köçürülüblər. Bu proses XIX əsrin əvvəllərindən başlanmışdır və sonralar daha geniş vüsət almışdır".

"Marağa-150 il" abidəsinin əlimizdə olan fotoşəkilləri ilə ermənilərə qarşı böyük hücum kampaniyası qurmaq tam mümkündür. Ermənilərin özləri tərəfindən dağıdılan bu abidənin şəkilləri vasitəsilə mübarizə kampaniyasını necə qurmaq olar?



Qeyd edək ki, ermənilərin Qarabağa köçürülməsinin 150 illiyi münasibətilə 1978-ci ildə qoyduqları "Marağa-150" abidəsi 1991-ci ildə ermənilərin özləri tərəfindən dağıdılıb. "Marağa-150" abidəsi erməni miqrantlarının Qarabağa gəlməsinin başlanğıcını göstərirdi. "Marağa-150" ermənilər tərəfindən dağılmağa məruz qalmasına baxmayaraq, hazırda qalıqları mövcuddur və Azərbaycan Silahlı Qüvvələrinin nəzarətində olan ərazidə yerləşir. Abidənin yerləşdiyi yer hazırkı Şıxarx qəsəbəsidir. Şıxarx qəsəbəsi ilə Tərtər şəhəri arasında 20 dəqiqəlik yol məsafəsi var.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, "Marağa-150" abidəsi Azərbaycan Respublikasının Ağdərə rayonunun Marağa kəndində İrandan ilk 200 erməni ailəsinin köçürülməsinin 150 illiyi münasibətilə 1978-ci ildə qoyulmuşdu. O vurğuladı ki, üzərində erməncə "Marağa-150" yazılmış abidə ermənilərin Azərbaycana ərazi iddiaları başlayanda yoxa çıxmış, sonra isə ortada dağıntıları görünmüşdü.

"Prezident olduqca maraqlı və diqqətçəkən məsələyə toxunub. Prezident bu haqlı məsələni qaldırmaqla, ifadə etməklə biz tarixçilərin qarşısına yeni vəzifələr qoydu. Bu çox ciddi fakt və arqumentdir, biz bu əsaslara söykənərək ermənilərə qarşı yeni elmi hücum kampaniyası həyata keçirməliyik. "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra İrandan gələn erməniləri əsasən Dağlıq Qarabağda, Türkiyədən köçürülən erməniləri isə əsasən Qərbi Azərbaycan torpaqlarında yerləşdirdilər. 40 min erməni İrandan Dağlıq Qarabağa, 86 min erməni isə Qərbi Azərbaycana köçürülüb. Ağdərə ərazisinə İranın müxtəlif yerlərindən, o cümlədən də Marağadan köçürülən ermənilər məskunlaşdırıldı. 1978-ci ildə onlar Dağlıq Qarabağa köçürülməsinin və burada məskunlaşdırılmasının 150 illiyi münasibətilə "Marağa-150" abidəsini qoydular. Bu abidənin qoyulduğu dövrdə çəkilən şəkilləri kitablarda və o dövrün mətbuat orqanlarında var. Bu da bizim əlimizdə olan danılmaz faktlardan biridir. Eyni zamanda, abidə ermənilər tərəfindən dağıdıldıqdan sonra da onun qalıqlarının fotoları kitablarda, başqa nəşrlərdə yer alıb. Bu şəkillər, həmçinin, orta məktəblərdə tədris edilən VII sinif "Qarabağ tarixi" dərsliyinə də salınıb. Bu dərsliyin müəllifi mənəm. Əslində, o vaxt o abidənin orada qoyulması ermənilərin bura gəlmə olduğunu, Dağlıq Qarabağa köçürüldüyünü təsdiqləmək idi. Bu abidənin özü ermənilərin bu torpaqlara İrandan gəlmə olduğunu sübut edən böyük bir faktdır. Ermənilər Azərbaycana qarşı ərazi iddiaları qaldırdıqdan sonra izi itirmək, ört-basdır etmək, buraya "gəlmə olmadıqlarını" "sübut etmək" üçün sonradan o abidəni məhv etdilər, dağıtdılar. Ermənilərin daha başqa mənfur hərəkətləri də var. Onlar həm Dağlıq Qarabağa gəlmə olduqlarını sübut edən "Marağa-150" abidəsini, həm də Xocalıdakı qədim türk kurqanlarını dağıtdılar. Xocalı kurqanlarını və "Marağa-150" abidəsini dağıtmaqla tarixi təhrif etmək, həqiqəti gizlətmək istədilər. Ermənilərin bizim torpaqlara gəlmə olduğunu sübut edən hər iki fakt çox əhəmiyyətlidir. Oradakı arxeoloji abidələr, eləcə də toponimlər ermənilərin bura sonradan gəlmə olmasını sübut edir. "Marağa-150" abidəsi isə heç cür inkar oluna bilməz, bu, ermənilərin özləri tərəfindən qoyulan abidədir. Onların buna qarşı əks arqumentinin olmasını təsəvvür etmirəm. Ona görə də Prezidentimiz bu tarixi həqiqəti bir daha qeyd etdi və bu faktı tarixçilərimiz də, elə ermənilərin özləri də yaxşı bilirlər. Ermənilər tarixi faktları müxtəlif saxta və süni yollarla inkar etməyə çalışsalar da, bu abidənin yeri durur, qalıqları var. Bu, sənədlərdə də əks olunub".

Ermənilərin Dağlıq Qarabağa köçürülməsi tarixi ilə bağlı əlimizdə kifayət qədər material, sübut və faktlar olduğunu qeyd edən Q.Hacıyev hesab edir ki, bu faktları artıq beynəlxalq aləmdə yaymağın tam zamanıdır: "Prezident də qeyd etdi ki, həmin abidənin fotoşəkilləri var. Bəli, o fotoşəkillər, eləcə də dövrün mətbuat orqanlarında çap edilən tarixi məlumatlar, kitablarda yer alan faktlar bizim ermənilərin beynəlxalq aləmdə ifşa edilməsi üçün yeni bir təbliğat həyata keçirməyimizə əsas verir. Ermənilər heç bir səviyyədə bunu inkar edə bilməzlər və bizim əlimizdə kifayət qədər fakt var. O faktların yenidən gündəmə gətirilməsi və dünyaya yayılması üçün kifayət qədər əsasımız, imkanlarımız var. Doğrudur, biz dəfələrlə bu məsələyə toxunmuşuq, amma mübarizə üsullarını daha da genişləndirməliyik".

*İradə SARIYEVA*

**"Mən deyəndə ki, İrəvan bizim qədim torpağımızdır, tam həqiqəti deyirəm. Bunu hər kəs bilir. Əgər belə olmasaydı, Azərbaycan Demokratik Respublikası nə üçün onda qərar qəbul edib ki, İrəvanı Ermənistana versin, bağışlasın. Özü də nə vaxt? Müstəqillik elan olunandan bir gün sonra. Müstəqillik 1918-ci il mayın 28-də elan edilib.**

# 1918-ci ildə İrəvanı Ermənistana verməmək olardımı - Əliyev tarix müzakirəsi başlatdı, alimlər nə deyir...

## Faiq Ələkbərli: "...işğal olunan torpaqlarının azad edilməsi sual altında qala bilərdi"

1918-ci il mayın 29-da isə qərar qəbul edilib, özü də yekdilliklə yox. Bu qərarın əleyhinə çıxanlar da olubdur, amma onların rəyi nəzərə alınmayıb. Azərbaycan Demokratik Respublikası tərəfindən qərar qəbul edilib ki, İrəvan Ermənistana bağışlanılsın, verilsin. Bunu unutmaq olmaz və bunu bağışlamaq da olmaz. Hər kəs bunu bilsin. Guya ki, bundan sonra Ermənistan Azərbaycana qarşı digər iddialarından əl çəkəcəkdi. Amma əl çəkdimi? Yox! Bizim qədim diyarımız Zəngəzur da Ermənistana verildi. Zəngəzurun verilməsi ilə böyük Türk dünyasında coğrafi parçalanma baş verdi, Azərbaycanın əsas hissəsi Türkiyə ilə sərhəddən məhrum edildi. Bizim Türkiyə ilə sərhədimiz yalnız Naxçıvan Muxtar Respublikasındadır. İrəvan onlara veriləndən sonra ermənilər öz iddialarından əl çəkdilərmi?

Dağlıq Qarabağ münaqişəsi. Yenə də torpaq iddiası. Əl çəkdimi? Kim əsaslandıra bilər ki, azərbaycanlıların tikdikləri İrəvan - qədim şəhərimiz Ermənistana verilsin. Kim bunu əsaslandıra bilər? Hansı adam? Qoy dursun, desin, mən hesab edirəm ki, Azərbaycan Demokratik Respublikası düz edib, bu işi görüb. Qoy desin. Ona görə, bilirsiniz, mifologiyaya düçar olmaq ən axırıncı şeydir. Siz gənclər, bütün gənclər tarixi olduğu kimi bilməlisiniz. Onu da bildirməliyəm. Bu hadisə 1918-ci ildə baş verib. Ancaq ilk dəfə bu tarixi faktla bağlı məsələni mən qaldırdım. Mənə qədər heç kim bunu qaldırmayıb. Bizim tarixi kitablarımızda buna rast gəlmək bəlkə nadir hallarda mümkündür. Sanki belə bir fakt olmayıb. Mən bunu qaldırdım. Müxtəlif kürsülərdən, o cümlədən, xaricdə olarkən qaldırdım və dedim ki, bu, bizim şəhərimizdir, bizim torpağımızdır. Hər kəs tarixini bilməlidir".

Bu fikirləri Tərtər Olimpiya Kompleksinin açılışında Prezident İlham Əliyev bildirib. Qeyd edək ki, İrəvanın Ermənistana verilməsi məsələsinə münasibətdə bəzi alimlər bunun qaçılmaz olduğunu, bəziləri isə verməməyin mümkünlüyünü bildirirlər. O vaxt İrəvanın Ermənistana verilməsi doğrudanmı qaçılmaz idi? İrəvan ermənilərə verilməsəydi, nə baş verərdi? Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, tanınmış tarixçi-alim Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, Prezident İlham Əliyevin İrəvanın Ermənistana verilməsi məsələsi ilə bağlı "bunu unutmaq olmaz və bunu bağışlamaq da olmaz" fikri bu məsələni daha qabarıq formada gündəmə gətirib. "Birincisi, burada bir neçə məqama diqqət yetirmək lazımdır. İlk növbədə, həmin dövrü, şəraiti, həmin dövrə qədərki məsələləri dəqiq bilmək lazımdır. Bilirik ki, Qacarlar dövləti keçmiş Səfəvilər ərazisinin hamısına sahib çıxa bilmədi. Xüsusilə də Azərbaycanın quzeyi, bütövlükdə isə Güney Qafqaz Çar Rusiyasının işğalı altında qaldı. 1813-cü il "Gülüstan", 1828-ci il "Türkmənçay" müqavilələri nəticəsində, birmənalı şəkildə, əsasən Azərbaycan türklərinin olduğu ərazilər daha çox Çar Rusiyasının işğalı altında qaldı. Həmin dövrə qədər bilirik ki, gürcülərin Kartli-Kaxetiya adlı kiçik bir çarlığı vardı, ermənilərin isə burada bir neçə məlikliyi vardı ki, o ermənilər isə xristian türkləri idilər. Yəni burada haylardan söhbət gedə bilməzdi. Bilirik ki, 1828-ci ildən 1917-ci ilə qədər Çar Rusiyası bizim torpaqları işğal etdikdən sonra əvvəlcə burada 1828-ci ildə erməni vilayəti yaratmağa çalışdı. Ancaq bu da gerçəkliyi özündə əks etdirmədiyi üçün, sonradan bu vilayət ləğv olundu və diqqət, fikir daha çox müxtəlif ərazilərdə - Qacarlarda, Osmanlılarda yaşayan haylara yönəldi, onları bura köçürdülər. Bilirsiniz ki, haylarla ermənilər fərqlidirlər. Əsasən də Qərbi Azərbaycanda (indiki Ermənistan -F.Ə.), Dağlıq Qarabağda, Naxçıvanda müxtəlif bölgələrdən köçürülən hayların sayı artdı. Xristian haylar da Çar Rusiyasının və Qərb dövlətlərinin nəzarəti ilə bir ideologiyanın - Qriqoryanlığın təsiri altında birləşdilər. Nəyi qeyd etmək istəyirəm, faktiki olaraq, Çar Rusiyası 1917-ci ilin fevralında süqut etdikdən sonra Güney Qafqazda üç dövlətin yaranması üçün münbit şərait yetişdi - Azərbaycan, Ararat və Gürcüstan. Əslində, Azərbaycan türk dövləti ilə gürcü dövlətinin ortaya çıxması məqsədə, məntiqə uyğun olsa da, ancaq hayların Ararat adı altında respublika yaratması heç cür məntiqə sığmır. Necə oldu ki, onlar belə bir dövlət yaratdılar? Şübhəsiz ki, burada daha çox Qərb dövlətləri və Çar Rusiyası maraqlı idi. Bilirik ki, Çar Rusiyası 1877-1888-ci illər müharibəsində də Osmanlını məğlub etmişdi və Osmanlının Şərqi Anadolu ərazisinin bir hissəsini - Qarsı, Vanı, Ərdahanı da işğal etmişdi. 1917-ci ilə Çar Rusiyası süqut edənə qədər həmin ərazilər də Çar Rusiyasının işğalı altında idi. Çar Rusiyasının süqutundan sonra müvəqqəti Rusiya hökuməti yarandı. 1917-ci ilin fevralında müvəqqəti Rusiya hökuməti, həmin ilin noyabr ayının əvvəlində isə Sovet Rusiyası yarandı. Məhz belə bir dövrdə Zaqafqaziya, yaxud Güney Qafqaz ərazisində əvvəlcə Zaqafqaziya Komissarlığı, daha sonra isə Qafqaz Seymi yarandı. Bildiyimiz kimi, həmin dövrdə, əslində, Rusiyada bolşeviklərlə müvəqqəti hökumət arasında ikitirəlik hökm sürürdü. Bilirik ki, Birinci Dünya Müharibəsinin sonlarına yaxın Osmanlı daha çox Qafqaz çevrəsində müəyyən uğurlar əldə edirdi və 1917-ci ilin sonu 1918-ci ilin əvvəllərində Zaqafqaziya Komissarlığının (sonradan Zaqafqaziya Seyminə çevrildi - F.Ə.) mərkəzi Tiflisdə idi. Burada Azərbaycan türkləri, gürcülər və haylar təmsil olunurdular. Hökumətdə də belə idi. Orada Azərbaycan türklərindən 44 millət vəkili vardı. Əsasən də "Müsavat" və "Türk müsəlman fraksiyası" burada təmsil olunurdu. Nəyi demək istəyirəm, Zaqafqaziya Seymi ki, Osmanlıya müharibə edəndə Azərbaycan Türk Milli Şurası bitərəf qalmışdı. Müharibədə də Osmanlı qalib gəldi. Nəticədə isə Almaniya Gürcüstanın müstəqilliyini təklif etdi. Çünki Zaqafqaziya Seymi elə Osmanlının təhriki ilə müstəqilliyini elan etmişdi. Osmanlının məqsədi Rusiya ilə öz arasında bufer dövlətlər yaratmaq idi. Almanlar 1918-ci il mayın 26-da Gürcüstanın müstəqilliyini təklif etdikdən sonra Azərbaycan türklərinin və hayların öz müstəqilliyini elan etməsi şəraiti ortaya çıxdı. İstiqlal qazanmaq xüsusən də Azərbaycan türkləri üçün açılmaz idi və Azərbaycan 1918-ci il mayın 28-də istiqlalını elan etdi. Ermənilər də həmçinin. Burada bir məsələ vardı".



*"Müstəqilliyini elan etdiyi günün səhərisi İrəvanın ermənilərə güzəştə gedilməsi ilə bağlı yeni qurulmuş Xalq Cümhuriyyətinin qarşısına şərt qoydular"*

F.Ələkbərlinin sözlərinə görə, həmin dövrdə Qərb dövlətləri Şərqi Anadoluda erməni dövləti yaradılması üçün Osmanlıya təzyiqlər göstərirdilər. O qeyd edir ki, hətta müəyyən bir müddətdə ermənilər muxtariyyət də əldə etmişdilər, lakin ikinci Sultan Həmidin sayəsində həmin məsələ kağız üzərində qalmışdı. "Məhz 1918-ci ilin mayında artıq Osmanlı azərbaycanlılar, gürcü və ermənilərlə Batumda danışıqlar aparırdı. Həmin danışıqlarda ermənilərin kiçik bir dövlət yaratmaq və hansısa bir şəhəri özlərinə paytaxt seçmək məsələsi ortaya çıxdıqda, o vaxt məhz İrəvanın ermənilərə müəyyən şərtlərlə güzəştə gedilməsi məsələsi qoyuldu. Osmanlı da, almanlar da yaxşı bilirdilər ki, İrəvan qədim Azərbaycan torpağı olduğu və orada Azərbaycan türkləri yaşadığı üçün məhz Müsəlman-türk fraksiyasının razılığını almaq mühümdür. Özünü mayın 28-də Azərbaycan - Türk Milli Şurası elan etmiş Müsəlman-türk fraksiyası da dünyaya öz müstəqilliyini elan etdi. Bundan bir gün sonra ermənilər dövlət yaratmaqla bağlı müraciət etdilər. Bildiyimiz kimi, 1918-ci il mayın 29-da İrəvan şəhərinin siyasi mərkəz kimi ermənilərə verilməsi haqqında Azərbaycan Milli Şurası qərar verdi".

Müsahibimiz hesab edir ki, yaranması hələ kağız üzərində olan və paytaxtı, coğrafi sərhədləri tam müəyyən olunmayan, Tiflisdə qalan Azərbaycan Türk Milli Şurası İrəvanı güzəştə getməyə razı olmasaydı, vəziyyət başqa cür olardı. Mənə belə gəlir ki, həmin dövrdə Azərbaycan Türk Milli Şurası İrəvanda ermənilərin öz müstəqilliyini elan etməsi və bu şəhərimizin Ermənistanın paytaxtı olması məsələsində güzəştə getməsəydi, o zaman xeyli təhlükə ilə üzləşərdi. Əgər həmin vaxt Azərbaycan İrəvanı ermənilərə paytaxt kimi güzəştə getməsəydi, bəlkə də Osmanlının Azərbaycana hərbi yardım göstərməsi sual altında qala bilərdi.

Həmin ilin iyun ayının 4-də Batumda bir müqavilə bağlandı və həmin müqaviləyə əsasən, Osmanlının Azərbaycana hərbi yardım göstərməsi barədə razılıq əldə olundu. Güzəşt edilməsəydi, ümumiyyətlə, Osmanlının hərbi, iqtisadiyyatda və digər sahələrdə bizə yardım göstərməsi reallaşa bilməzdi. Əlbəttə, həmin dövrdə almanlar daha çox ermənilərin və gürcülərin xeyrinə işlər görülməsində maraqlı idi. Osmanlılar isə o dövrdə erməni dövlətinin yaranması məsələsində beynəlxalq situasiyaya uyğun güzəştə getməyə məcbur idilər. Osmanlıları da onda ittiham edirlər ki, nə üçün onlar Şərqi Anadoluda yox, Çar Rusiyasının işğalı altında olan, Azərbaycan türklərinin yaşadıqları İrəvanda erməni dövlətinin yaradılmasına razılıq verib? Hesab edirəm ki, həmin dövrdə Osmanlı özü məğlub durumda idi. Oktyabr ayında imzalanan "Mudrost" müqaviləsindən sonra keçmiş imperiya gücünü tamamilə itirmiş oldu. Fikrimcə, həmin şəraitdə Azərbaycan Türk Milli Şurası İrəvanı paytaxt kimi ermənilərə güzəştə getməsəydi və 9 min kvadratkilometrlik ərazidə öz varlıqlarını elan etməsinə birmənalı şəkildə etiraz etsəydi, o zaman Azərbaycanın digər ərazilərini işğaldan azad edə bilməyəcəkdi. Çünki o vaxt, Bakı da daxil olmaqla, Qüzey Azərbaycanın bir çox hissəsi Bakı Xalq Komissarları Sovetinin nəzarəti altında idi. Əslində, əsas məqsəd Bakının erməni və rus şəhərinə çevrilməsi idi. Sonradan Xalq Komissarları Soveti Gəncəni də ələ keçirmək istəyirdi. Bu da baş versəydi, Azərbaycan Xalq Cümhuriyyətinin varlığı kağız üzərində qalacaqdı. İrəvanın güzəştə gedilməsinə razılıq verilməsinin səbəbi o idi ki, bununla da Azərbaycanın digər işğalda olan ərazilərini Osmanlının yardımı ilə işğalçılardan azad edə bilsin. İrəvanın ermənilərə güzəştə gedilməsinə Osmanlı da bu və ya digər dərəcədə məcbur idi. Əslində isə həmin dövrdə cümhuriyyətin nə bir polisi, nə də bir əsgəri vardı, heç həmin dövrdə bayraq belə müəyyənləşməmişdi. O, Tiflisdə idi. Müstəqilliyini elan etdiyi günün səhərisi İrəvanın ermənilərə güzəştə gedilməsi ilə bağlı yeni qurulmuş Xalq Cümhuriyyətinin qarşısına şərt qoydular. Əslində, həmin dövrdə Antanta da burada erməni dövləti yaradılmasında maraqlı idi. O dövrkü şəraitlə bağlı artıq Türk Milli Şurasını məlumatlandırmışdılar. Fətəli xan Xoyski də, başqaları da bunu bilirdilər. İrəvan məsələsində Azərbaycan Milli Şurası etiraz etsəydi, o zaman Azərbaycanın Bakı Xalq Komissarları Sovetinin işğalı altında olan və digər işğal olunan torpaqlarının azad edilməsi sual altında qala bilərdi" - deyə F.Ələkbərli vurğuladı.

**İradə SARIYEVA**

# "Ermənistan dövləti tarixi Azərbaycan əraziləridir" - Ermənistan təcavüzünün ifşasında Prezident Əliyevin bəyanatının gücü...

***Səyyar Əliyev:** "Onların tarixi işğalçılıq, saxtakarlıq sifətlərini dünyaya çatdırmaq baxımından Prezidentin çıxışını çox əhəmiyyətli sayıram"*

**Prezident İlham Əliyev iyunun 3-də Tərtər Olimpiya İdman Kompleksi ilə tanışlıqdan sonra rayonun bir qrup idmançısı ilə görüşündə çıxışı zamanı indiki Ermənistanın tarixi Azərbaycan torpaqlarında yaradılmasından danışıb:"İndiki Ermənistan ərazisində tarixi Azərbaycan adları, şəhərlərin, kəndlərin adları dəyişdirilib.**

Bu adlar neçənci ildə dəyişdirilib? Ona görə biz deyəndə ki, indiki Ermənistan tarixi Azərbaycan torpağında yaradılıb, tam həqiqəti deyirik. Biz yaxşı bilirik ki, ermənilər bizim torpağımıza, o cümlədən indiki Ermənistan ərazisinə XIX əsrin əvvəllərində köçürülüblər, Rus-İran müharibəsindən sonra. Tərtərlilər yaxşı bilirlər və Azərbaycan xalqı da bilir ki, 1978-ci ildə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindəki kəndlərin birində ermənilərin bu bölgəyə gəlməsinin 150 illiyini əks etdirən abidə ucaldılıb. 1978-ci ildən 150 ili çıxın, deməli 1828-ci ildə gəliblər. Müharibə başlayan kimi o abidəni dağıdıblar, amma onun qalıqları qalıb və indi istənilən adam gedib baxa bilər. Onun şəkillərini də göstərmək lazımdır. Onlar gəlmədirlər, Şərqi Anadoludan və İrandan bizim torpaqlarımıza köçürülüblər. Bu proses XIX əsrin əvvəllərindən başlanmışdır və sonralar daha geniş vüsət almışdır. Mən deyəndə ki, İrəvan bizim qədim torpağımızdır, tam həqiqəti deyirəm. Bunu hər kəs bilir. Əgər belə olmasaydı, Azərbaycan Demokratik Respublikası nə üçün onda qərar qəbul edib ki, İrəvanı Ermənistana versin, bağışlasın. Özü də nə vaxt? Müstəqillik elan olunandan bir gün sonra. Müstəqillik 1918-ci il mayın 28-də elan edilib. 1918-ci il mayın 29-da isə qərar qəbul edilib, özü də yekdilliklə yox. Bu qərarın əleyhinə çıxanlar da olubdur, amma onların rəyi nəzərə alınmayıb. Azərbaycan Demokratik Respublikası tərəfindən qərar qəbul edilib ki, İrəvan Ermənistana bağışlansın, verilsin. Bunu unutmaq olmaz və bunu bağışlamaq da olmaz. Hər kəs bunu bilsin. Guya ki, bundan sonra Ermənistan Azərbaycana qarşı digər iddialarından əl çəkəcəkdi. Amma əl çəkdimi? Yox! Bizim qədim diyarımız Zəngəzur da Ermənistana verildi. Zəngəzurun verilməsi ilə böyük türk dünyasında coğrafi parçalanma baş verdi, Azərbaycanın əsas hissəsi Türkiyə ilə sərhəddən məhrum edildi. Bizim Türkiyə ilə sərhədimiz yalnız Naxçıvan Muxtar Respublikasındadır. İrəvan onlara veriləndən sonra ermənilər öz iddialarından əl çəkdilərmi?

Dağlıq Qarabağ münaqişəsi. Yenə də torpaq iddiası. Əl çəkdimi? Kim əsaslandıra bilər ki, azərbaycanlıların tikdikləri İrəvan - qədim şəhərimiz Ermənistana verilsin. Kim bunu əsaslandıra bilər? Hansı adam? Qoy dursun, desin mən hesab edirəm ki, Azərbaycan Demokratik Respublikası düz edib bu işi görüb. Qoy desin. Ona görə, bilirsiniz, mifologiyaya düçar olmaq ən axırıncı şeydir. Siz gənclər, bütün gənclər tarixi olduğu kimi bilməlisiniz. Onu da bildirməliyəm. Bu hadisə 1918-ci ildə baş verib. Ancaq ilk dəfə bu tarixi faktla bağlı məsələni mən qaldırdım. Mənə qədər heç kim bunu qaldırmayıb. Bizim tarix kitablarımızda buna rast gəlmək bəlkə nadir hallarda mümkündür. Sanki belə bir fakt olmayıb. Mən bunu qaldırdım. Müxtəlif kürsülərdən, o cümlədən xaricdə olarkən qaldırdım və dedim ki, bu bizim şəhərimizdir, bizim torpağımızdır. Hər kəs tarixini bilməlidir".



Göründüyü kimi, artıq neçənci dəfədir ki, Prezident Ermənistan dövlətinin tarixi Azərbaycan ərazilərində yaradıldığını konkret faktlarla sübut edir. Ermənistan təcavüzünün ifşasında Prezident Əliyevin bu yöndə olan bəyanatının gücünü necə qiymətləndirmək olar?

Tarix üzrə fəlsəfə doktoru Səyyar Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkə başçısı bu ciddi mövzuya neçənci dəfədir müxtəlif tədbirlərdəki çıxışları zamanı toxunur:"Hazırkı Ermənistanın tarixi Azərbaycan torpaqlarında qurulmuş dövlət olması elementar tarixi bilikləri olan adam üçün də aydındır. O qədər də uzaq keçmişi əhatə etməyən bu reallığı təkzib etmək mümkün deyil. Prezident İlham Əliyev bundan əvvəlki çıxışlarında da qeyd etmişdi ki, bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bu hər bir azərbaycanlının bilməsi vacib olduğu tarixi gerçəkliklərdəndir. Prezidentin İrəvan xanlığı ilə bağlı həqiqətlərin dünyaya çatdırılmasının vacibliyini bildirməsi hər bir azərbaycanlını, planetin harasında yaşamasından asılı olmayaraq, bu istiqamətdə koordinasiyalaşmış şəkildə fəaliyyət göstərməsini zəruri edir.

Ermənistanın ərazisi tarixi Azərbaycan dövlətləri və xanlıqlarının tərkibinə daxil olub. Bu dövlətlərə nəzər salarkən İrəvan şəhərinin və ətraf ərazilərin etnik tərkibinin hansi qruplardan ibarət olması, orada yaşayan əhalinin hansı dinə qulluq etməsi və danışdıqları dil heç kimdə şübhə oyatmır".

Tarixçi alimin sözlərinə görə, ermənilər hər yerdə olduğu kimi, bu istiqamətdə də tarixin saxtalaşdırılmasına çalışırlar:"2018-ci ildə İrəvan şəhərinin 2800 illiyini qeyd etmələri onların növbəti tarixi uydurmalarından biridir.

**Bununla da onlar növbəti dəfə özlərinin guya qədim dövlətçilik ənənələrinə və mədəniyyətə sahib olduqlarını bildirmək istəyirlər. Bununla da ermənilər dünyaya bəyan edirlər ki, İrəvan şəhəri, hətta qədim Romadan da 30 yaş "böyük" imiş. Bütün bunlar bir daha sübut edir ki, ermənilər saxtakarlıqla, kimlərəsə arxalanaraq özlərinə dövlət yaradıblar. Məhz həmin irsin davamı olaraq onlar sonra da zaman-zaman Azərbaycan torpaqlarını ilhaq ediblər. Onların tarixi işğalçılıq, saxtakarlıq sifətlərini dünyaya çatdırmaq baxımından Prezidentin çıxışını çox əhəmiyyətli sayıram. Prezidentin bu yöndə olan çıxışını biz bir tezis olaraq dünyada təbliğ etməliyik".**

*Məhəmmədəli* **QƏRİBLİ**

# Separatçı rejimin Dağlıq Qarabağda qanunsuz seçkisinə AŞPA-nın yolverilməz münasibəti yenidən gündəmdə - Əliyev hücum diplomatiyasını davam etdirir...

***Rauf Zeyni:** "Əsas odur ki, AŞPA-nın bu addımının yekun rəyə heç bir təsiri yoxdur"*




**Prezident İlham Əliyev iyunun 3-də Tərtər Olimpiya İdman Kompleksi ilə tanışlıqdan sonra rayonun bir qrup idmançısı ilə görüşündə çıxışı zamanı Avropa Şurasının anti-Azərbaycan mövqeyindən danışıb və bu təşkilatda anti-Azərbaycan meylləri, azərbaycanafobiyanın hökm sürdüyünü bildirib:**

"Bildiyiniz kimi, bu yaxınlarda qondarma "Dağlıq Qarabağ respublikası"nda qondarma prezident seçkiləri keçirilmişdir. Qondarma, saxta prezident, guya ki, seçilib. Bu gün Dağlıq Qarabağda hakimiyyəti zəbt etmiş xunta rejimidir və əvvəlki rejimin törtöküntüləridir. Ermənistanın əvvəlki rejiminin bəd əməlləri haqqında bütün faktları Ermənistanın indiki rəhbərliyi açıbdır, ictimaiyyətə təqdim edibdir. Onların generalları oğru, onların dırnaqarası "qəhrəmanları" cinayətkar, onların rəhbərləri rüşvətxordur. Keçmiş rejimin nə qədər nümayəndələri həbs olunub, nə qədər axtarışa verilib. Bu nə deməkdir?! O deməkdir ki, 2018-ci ilə qədər 20 il ərzində Ermənistana cinayətkarlar rəhbərlik ediblər. Onlardan biri indi həbsxanadadır, o birisi isə, hələ ki, azadlıqda. Halbuki, onun da ölkədən çıxışına qadağa qoyulub. Yəni bir ölkənin müstəqilliyi hələ 30 ilə çatmayıb, ölkənin 20 ili cinayətkarların ixtiyarına buraxılıb. Əlbəttə ki, bu cinayətkar dəstə cinayətkar rejim yaradıb. O cinayətkar rejim ki, bütün milli azlıqları əzibdir. Orada bir dənə də olsun milli azlıq yoxdur. Azərbaycanın qədim torpaqlarında bir dənə də olsun azərbaycanlı qalmayıbdır. Bizim tarixi abidələrimiz, məscidlərimiz dağıdılıbdır, azərbaycanlıların tarixi irsi silinibdir. Nəinki azərbaycanlıların, heç bir başqa millətin nümayəndəsi orada yoxdur. Baxın, dünyanın əksər ölkələrində müxtəlif xalqlar yaşayır. Bu baxımdan Azərbaycan bir örnəkdir. Bunu bütün dünya etiraf edir ki, Azərbaycanda hökm sürən millətlərarası münasibətlər, dinlərarası dialoq dünya üçün nümunədir. Ermənistanda isə əhalinin 99,9 faizi ermənidir. Bu cinayətkar kriminal rejim bütün digər millətlərdən olan insanları müxtəlif yollarla qovub. İndi Dağlıq Qarabağda da xunta rejimi hökm sürür. Əlbəttə, xunta rejimi tərəfindən keçirilmiş saxta seçkilər bir şoudur, bir təlxəklər tamaşasıdır. Bütün aparıcı ölkələr bu dırnaqarası "seçkiləri" qınayıb və tanımayıb. Baxın, özü də bəyanatlar qəbul ediblər. ATƏT-in Minsk qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya bəyan ediblər ki, seçkiləri tanımırlar. Avropa İttifaqı bəyan edib ki, seçkiləri tanımır. Avropa Parlamenti, həmçinin İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, digər təşkilatlar - bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri qınadı, təkcə Avropa Şurasından başqa. Avropa Şurası susdu. O da nəyə görə? Bəllidir. Çünki Avropa Şurası Parlament Assambleyasının əsas hədəflərindən biri Azərbaycanı ləkələmək, ölkəmizi gözdən salmaq, ölkəmiz haqqında uydurmalar yaymaq, saxta məruzələr qəbul etdirmək, Azərbaycanda "beşinci kolonu", satqınları və münaqişə ilə bağlı Ermənistan tərəfini dəstəkləməkdir. Ona görə Avropa Şurası bu saxta seçkilərlə bağlı səsini belə çıxarmadı. Bu halda hansı obyektivlikdən, hansı ədalətdən söhbət gedə bilər?!

Mən deyəndə ki, Avropa Şurası tərəfindən Azərbaycanla əlaqədar qəbul edilmiş sənədlər mənim üçün bir kağız parçasından artıq deyil, bunu nəzərdə tuturdum. Bütün Azərbaycan ictimaiyyəti görüb ki, Avropa Şurası anti-Azərbaycan mövqedədir və bu təşkilatda anti-Azərbaycan meyilləri, azərbaycanafobiya hökm sürür və bizə ünvanlanmış bütün ittihamların təməlində məhz azərbaycanafobiyadır. Biz bütün bu ittihamları artıqlaması ilə onların özlərinə qaytarırıq. Qoy, bir bəyanat versinlər ki, indi bu dünyada bəzi ölkələrdə nələr baş verir. Polis zorakılığı, nümayişçilərə qarşı tətbiq edilən güc, nümayişçilərin öldürülməsi, onların gözlərinin çıxarılması, kütləvi surətdə həbs edilməsi, jurnalistlərin döyülməsi, həbs edilməsi - bunlar harada baş verir? Qərb ölkələrində. Açsınlar gözlərini, baxsınlar və utansınlar ki, susublar. Nəyə görə? Çünki güclü dövlətlərdən qorxurlar. Hesab edirlər ki, bu məsələnin insan haqlarının qorunmasına aidiyyəti yoxdur. Ona görə bu qurumun riyakar mahiyyəti heç kim üçün sirr deyil və bizi də heç maraqlandırmır, onlar bu saxta seçkiləri tanıyıblar, yoxsa yox. Əsas odur ki, dünyanın sanballı və hörmətə layiq olan təşkilatları Dağlıq Qarabağda keçirilmiş saxta seçkiləri tanımayıb və qınayıblar".

Ölkə başçısı qondarma qurumda keçirilən saxta seçkilərin AŞPA tərəfindən təqnqidə məruz qalmadığını bildirməklə həmin təşkilatın ölkəmizə qarşı açıq qərəzini ortaya qoymuş oldu. Prezidentin haqsızlıqlara qarşı həyata keçirdiyi hücum diplomatiyasının ikili standartlarla çalışan həmin qurumların ifşasında nə kimi rolu olur?

Milli Qeyri Hokumət Forumunun prezidenti Rauf Zeyni qəzetimizə bildirdi ki, Prezident çıxışında əsas vurğunu qondarma "Dağlıq Qarabağ respublikası"nda keçirilmiş qondarma "prezident"in qondarma "seçkiləri"nə edib: "Doğru olaraq qeyd edilib ki, "seçkilər" bir daha göstərdi ki, bu qanunsuz xunta rejimini heç kim tanımır. "Seçkilər"dən sonra bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri tanımadı və açıq-aydın bəyanatlar səsləndi. ATƏT-in Minsk Qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya açıqlama verdi. ATƏT Parlament Assambleyası açıqlama verdi. Avropa İttifaqı, hətta bəzən bizə qərəzli mövqedə dayanan Avropa Parlamenti də açıqlama verdi. NATO, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Şurası - bütün bu təşkilatlar dünyanın demək olar ki, mütləq əksəriyyətini cəmləşdirir. Qoşulmama Hərəkatında 120 ölkə, İslam Əməkdaşlıq Təşkilatında 50-dən çox ölkə, Avropa İttifaqında 30-a yaxın ölkə, ATƏT-də 50-yə yaxın ölkə. Bütün bu təşkilatlar bu "seçkiləri" tanımadı və bir daha göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Ancaq Avropa Şurası Parlament Assambleyası suqunluq nümayiş etdirdi. Bu, güya daima haqqın, ədalətin yanında olduğunu bəyan edən təşkilatdı. Hansı ki, uzun illərdi Azərbaycanı qaralamaq, Azərbaycana şər, böhtan atmaq, Azərbaycanı nüfuzdan salmaq üçün əlindən gələni əsirgəmir. Görünən budur ki, Avropa Şurası dolayısı ilə bu qeyri-qanuni seçkilərə münasibətdə özünün mövqesizliyini nümayiş etdirdi. Ümumiyyətlə, Avropa Şurası Parlament Assambleyasının riyakar mahiyyəti heç kim üçün sirr deyil. Bunun da səbəbləri var. Çünki həmin təşkilatda sifariş əsasında Azərbaycan əleyhinə fəaliyyət göstərən qruplar kök atıb. Ölkə başçısı doğru olaraq onları ikiüzlülükdə ittiham etdi və böyük ölkələrdə baş verən hadisələrə susqun qalmalarını misal çəkdi. Əsas odur ki, AŞPA-nın bu addımının yekun rəyə heç bir təsiri yoxdur. Sadəcə özünü biabır etmiş oldu".

***Məhəmmədəli QƏRİBLİ***

# AŞPA-nın Azərbaycana münasibətində əsl insan haqları ilə heç bir bağlılıq yoxdur - Prezident AŞPA-nı çətin sualla ifşa etdi....

**Avropa Şurası anti-Azərbaycan mövqedədir və bu təşkilatda anti-Azərbaycan meylləri, azərbaycanafobiya hökm sürür. Bunu Prezident İlham Əliyev Tərtər Olimpiya İdman Kompleksi ilə tanışlıqdan sonra rayonun bir qrup idmançısı ilə görüşündə çıxışı zamanı deyib.**



Dövlət başçısının sözlərinə görə, Avropa Şurası Parlament Assambleyasının əsas hədəflərindən biri Azərbaycanı ləkələmək, ölkəmizi gözdən salmaqdır:"Ölkəmiz haqqında uydurmalar yaymaq, saxta məruzələr qəbul etdirmək, Azərbaycanda "beşinci kolonu", satqınları və münaqişə ilə bağlı Ermənistan tərəfini dəstəkləməkdir. Bütün Azərbaycan ictimaiyyəti görüb ki, Avropa Şurası anti-Azərbaycan mövqedədir və bu təşkilatda anti-Azərbaycan meylləri, azərbaycanafobiya hökm sürür və bizə ünvanlanmış bütün ittihamların təməlində məhz azərbaycanafobiyadır. Biz bütün bu ittihamları artıqlaması ilə onların özlərinə qaytarırıq. Qoy, bir bəyanat versinlər ki, indi bu dünyada bəzi ölkələrdə nələr baş verir. Polis zorakılığı, nümayişçilərə qarşı tətbiq edilən güc, nümayişçilərin öldürülməsi, onların gözlərinin çıxarılması, kütləvi surətdə həbs edilməsi, jurnalistlərin döyülməsi, həbs edilməsi, bunlar harada baş verir? Qərb ölkələrində. Açsınlar gözlərini, baxsınlar və utansınlar ki, susublar. Nəyə görə? Çünki güclü dövlətlərdən qorxurlar. Hesab edirlər ki, bu məsələnin insan haqlarının qorunmasına aidiyyəti yoxdur. Ona görə bu qurumun riyakar mahiyyəti heç kim üçün sirr deyil".

## Azər Həsrət: "Bu o deməkdir ki, qurum insan haqları məsələsində riyakar və ikili standartlardan çıxış edir"

Həqiqətən də AŞPA-nın insan hüquqları ilə bağlı sərgilədiyi siyasət riyakar xarakterlidir. Belə olmasaydı, o zaman qurum ədalətli mövqe ortaya qoyardə və bütün ölkələrə münasibətdə obyektiv mövqedən çıxış edərdi.

Məsələyə münasibət bildirən ekspert Azər Həsrətin sözlərinə görə, Prezident İlham Əliyevin AŞPA ilə bağlı səsləndirdiyi tənqidi fikirlər reallığı əks etdirir:"Ölkə başçısı istər beynəlxalq təşkilatların, istərsə də dünyada fikir, ictimai rəy yaradan qurumların nə ilə məşğul olduğunu bizim hamımızdan yaxşı bilir və daha dəqiq təsbit edir. Bu baxımdan AŞPA ilə bağlı dediyi fikirlər təsadüfi deyil. Həqiqətən də Prezidentin bu məsələyə diqqət çəkməsi indiki zamanda yerinə düşür. Məsələ ondadır ki, istər Avropa ölkələrində, istərsə də dünyanın başqa ölkələrində insan haqları ilə bağlı ciddi problemlər yaşanmaqdadır. Koronavirus pandemiyası dövründə belə, Avropada insanlara qarşı polis zorakılığı müşahidə edilməkdədir. Belə bir şəraitdə AŞPA bütün ölkələrdə, xüsusən də Avropa ölkələrindəki vəziyyətə bərabər münasibət bəsləməlidir. Ancaq deyildiyi və göründüyü kimi, bu münasibəti müşahidə edə bilmirik. Azərbaycanda adicə bir problem olanda az qala ordu ilə üstümüzə gəlirlər. Lakin tutaq ki, Almaniyada, Fransada bu cür hadisələr baş verəndə AŞPA susur. Bu o deməkdir ki, AŞPA insan haqları məsələsində riyakar və ikili standartlardan çıxış edir. İkinci bir tərəfdən də hər zaman deyilir ki, Avropanın öz həqiqəti var. Bu nədən ibarətdir? Bu ondan ibarətdir ki, əgər insan haqları pozuntusu Avropada baş verərsə o qanunidir, bənzər hadisə Azərbaycan kimi ölkələrdə baş verirsə qanunsuzdur. Həmin ölkələr tənqid edilməlidir. Bax, budur AŞPA-nın riyakar, ədalətsiz yanaşması. Ona görə də Prezident İlham Əliyevin qurumla bağlı səsləndirdiyi fikirlər reallığı əks etdirir".

*"Koronavirus pandemiyası dövründə belə, Avropada insanlara qarşı polis zorakılığı müşahidə edilməkdədir"*

***Vidadi ORDAHALLI***

# İsrail iki il əvvəl Azərbaycana satdığı raketləri indi sınaqdan keçirir? - Yeni erməni təxribatının mahiyyəti...

**İsrailin "Israel Aerospace Industries" konserni yaxınmənzilli ballistik raketləri sınaqdan keçirib. İki ballistik raket dənizdə hədəfləri uğurla vura bilib. Onlardan biri 90 kilometr, digəri isə 400 kilometr məsafədə hədəfləri yüksək dəqiqliklə vurub. Şirkətdən qeyd ediblər ki, raketlər təhlükəsizlik baxımından dənizdə sınaqdan keçirilib.**



Qeyd edək ki, "LORA" raket kompleksi "Israel Aerospace Industries" tərəfindən istehsal edilib. Raket kompleksinin sınağı ilk dəfə 2017-ci ildə baş tutub.

Maraqlıdır ki, erməni təbliğat maşını bu informasiya ilə də öz məqsədləri üçün manipulyasiya etməyə çalışır. Onlar qeyd edirlər ki, Azərbaycanın İsraillə hərbi sahədə ciddi əməkdaşlığı var və hazırda sınaqdan keçirilən raketlər iki il əvvəl Azərbaycana satılıb. Bu xüsusda erməni KİV-nin təxribat yaratmaq istədiyi başlıca istiqamət budur ki, güya İsrail Azərbaycana satdığı silahların sınağını hələ indi keçirir. Bu məntiqlə demək istəyirlər ki, İsrail Azərbaycana sınaqdan keçməyən silah satıb. Ermənilərin bu yeni təxribatının mahiyyəti nədən ibarət ola bilər?

Ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bütün bunlar Ermənistan təbliğat maşınının Azərbaycana qarşı apardığı hibrid informasiya müharibəsinin tərkib elementləridir:"Müharibə şəraitində yaşayan ölkə bu cür informasiya təxribatlarına daim hazır olmalıdır. Biz İsraillə hərbi sahədə əməkdaşlıq ediriksə, bu o demək deyil ki, aldığımız silahlarla bağlı Ermənistanın dolğun məlumatı olur. Qətiyyən belə deyil. Bununla Ermənistan informasiya blefi edir. Soyuq müharibə pik həddə çatıb. Ermənistan bütün vasitələrlə çox aktiv şəkildə hücuma keçib. Azərbaycanın xeyrinə olan istənilən məsələni hədəfə götürüb, ona uyğun təxribatlar həyata keçirirlər. Biz də çalışmalıyıq ki, informasiya cəbhəsində boşluqlar buraxmayaq. Azərbaycan tərəfinin həm diplomatik, həm də hərbi sahədə ciddi uğurları var. Biz öz torpaqlarımızı işğaldan azad etmək üçün ardıcıl iş aparırıq. Ordunun yeni silahlarla təchiz edilməsi də bu siyasətin tərkib komponentidir. Cənab Prezidentin atdığı addımlar bizim bütün istiqamətlər üzrə mövqeyimizin güclü olduğunu göstərir. Bir faktı da qeyd edim ki, müharibə şəraitində olan ölkədə heç vaxt daimi rahatlıq olmur. Bu, tam qələbəni əldə edəndə təmin olunur. Biz bu qələbəni əvvəlcə informasiya cəbhəsində qazanmalıyıq, sonra Azərbaycan əsgəri öz sözünü deməlidir. Hazırda bizim ordumuz Ermənistanı bütün parametrlər üzrə dəfələrlə üstələyir. Bu müqayisəni etmək belə gülüncdür. İnformasiya sahəsində isə görməli olduğumuz işlər çoxdur. Biz erməni təbliğatının yaydığı bütün informasiyalara dərhal reaksiya da verməməliyik. Çünki onların istəyi də budur ki, tirajladıqlarına reaksiya verilsin. Təəssüflər olsun ki, bizim ölkədə son vaxtlar müharibə ilə bağlı populist çıxışlar çoxalıb. Əksər hallarda müharibənin nə olduğunu bilməyənlər belə müharibə anonsu verirlər. Bu yöndə səslənən fikirlər bəzən bizim əleyhimizə işləyir. Bu kampaniyanı düzgün reallaşdırmaq üçün düşünülmüş təbliğat aparmalıyıq. Ermənilərin İsraillə bağlı yaydıqları məlumat Azərbaycanın informasiya cəbhəsindəki mövqeyini sarsıltmağa yönəlib. Bu, çoxgedişli, müxtəlif kombinasiyalı prosesdir. Bir niyyəti də Azərbaycanla müttəfiqlərinin arasını korlamağa istiqamətlənib. O qədər zərgər dəqiqliyi ilə bu məsələyə yanaşmalıyıq ki, hansısa fakt bizim əleyhimizə işləməsin. Azərbaycan kimdən hansı silahları aldığının fərqindədir. Bunun üçün narahatlığa əsas görmürəm".

## İbrahim Rüstəmli: "Ermənilərin İsraillə bağlı yaydıqları məlumat Azərbaycanın informasiya cəbhəsindəki mövqeyini sarsıltmağa yönəlib"

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın eks baş naziri "Azərbaycanın yerində olsaydım" təhrikçi mesajı ilə nə demək istədi... Paşinyanın "Kazan formulu"na keçid üçün öz hesabları var?..

**Ermənistanda mövcud hakimiyyətin Dağlıq Qarabağ münaqişəsi ətrafında hazırkı vəziyyəti hələ də düzgün qiymətləndirməməsi konfliktin hərbi həllini daha sürətlə yaxınlaşdırmaqdadır. Özü də burada nəzərə almaq lazımdır ki, Azərbaycan qeyd edilən xüsusda Ermənistana ünvanlanmış xəbərdarlıqların da sayını artırıb.**

Qeyd edilən xüsusda Prezident İlham Əliyevin Tərtər Olimpiya İdman Kompleksinin açılışında çıxışı zamanı səsləndirdiyi fikirlər də ayrıca diqqət cəlb etdi. Siyasi və hüquqi baxımdan Qarabağ məsələsində Azərbaycanın mövqeyinin mükəmməl olduğunu bildirən dövlət başçısı ölkəmizin gücünü yenidən düşmənə xatırlatdı:"Biz iqtisadi sahədə, hərbi sahədə Ermənistandan qat-qat güclüyük və bunu göstərmişik, o cümlədən döyüş meydanında. Onlar bizə hücum etdi, biz cavab verib onları yerinə oturtduq. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini azad etdik... Aprel döyüşləri mənfur qonşumuza dərs olmalı idi. Ondan sonra 2018-ci ildə Naxçıvan əməliyyatı. Orada da minlərlə hektar torpaq bizim nəzarətimizə keçdi. İşğal olunmuş torpaqları azad etdik. Azərbaycan ordusu gücünü göstərdi".

Dövlət başçısı qeyd edib ki, münaqişənin həllinin bir yolu var, o da ölkəmizin ərazi bütövlüyünün bərpasıdır:"Başqa yol yoxdur. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Mən bu yaxınlarda demişəm, biz güc toplayırıq, daha da güclü olmalıyıq və olacağıq. Eyni zamanda, geosiyasi vəziyyət elə olmalıdır ki, bizim bütün addımlarımız uğurla nəticələnsin. Mən demişəm ki, Qarabağ Azərbaycandır və bir daha bunu təkrarlamaq istəyirəm: Qarabağ və onun tərkib hissəsi olan Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi. Bütün Azərbaycan ictimaiyyəti, xalqımız bu mövqeyi dəstəkləyir. Mənim apardığım siyasəti, o cümlədən bu məsələ ilə bağlı apardığım siyasəti dəstəkləyir". Buradan kifayət qədər aydın görünür ki, Azərbaycan düşmənlə güc dilində danışmağa hazırdır və bu istiqamətdə gücünü daha da artırır. Bu isə o deməkdir ki, 4 il əvvəl baş tutan aprel savaşı istənilən an yenilənə bilər. Həmin əməliyyatlardan Azərbaycanın malik olduğu hərbi güc düşmənə kifayət qədər yaxşı məlumdur. Məhz aprel zəfərində illərlə yaradılan "məğlubedilməz erməni ordusu" mifi dağıldı və erməni xalqı işğalçılıq siyasətinin iflasa uğradığını dərk etdi. Erməni xalqı, eyni zamanda dünya ictimaiyyəti də başa düşdü ki, işğal olunmuş ərazilərin hərb yolu ilə azad edilməsi mümkündür. Azərbaycan xalqı, dövləti və ordusu buna tam qadirdir. Bundan başqa, düşmən unutmur ki, aprel döyüşləri Azərbaycan xalqının və ordusunun tarixi ərazilərimiz olan Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad edilməsi üçün hər cür fədakarlığa hazır olduğunu, düşmənlə yanaşı, bütün dünyaya sübut etdi. Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərdi. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verir ki, Azərbaycan ordusu təmas xəttində mövcud vəziyyətə tam nəzarət etsin və lazımi tədbirləri görə bilsin. Məhz uğurlu aprel qələbəsindən daha da ruhlanan Azərbaycan ordusu iki il sonra daha bir böyük zəfər qazandı. 2018-ci ilin mayında Əlahiddə Ümumqoşun Ordu tərəfindən Günnüt kəndi və ətraf ərazilərin nəzarət altına alınması bir daha göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədir.

İstər şanlı aprel döyüşləri, istərsə də Günnüt zəfəri Azərbaycanın düşmən üzərində hərbi qələbəyə istənilən vaxt imza ata biləcəyini nümayiş etdirir. Elə dövlət başçısı Tərtərdə məhz bunu yenidən düşmənə xatırladıb. Bir daha qeyd edilib ki, Azərbaycanın malik olduğu potensial işğal altındakı bütün torpaqlarımızın tezliklə azad ediləcəyini tam əminliklə deməyə ciddi əsas verir. Bunun güc yolu ilə də reallaşmasının mümkünlüyünü dövlət başçısı düşmənə açıq şəkildə bildirdi. Elə bu fonda Azərbaycan öz ordusunun hərbi-texniki imkanlarını, yerli hərbi sənayeni ilbəil gücləndirməklə, sözsüz ki, həm də öz döyüş qabiliyyətini gücləndirməkdədir. Çünki Qarabağ konfliktinin güc yolu ilə həll variantı gündəmdən çıxmayıb. Əksinə, Ermənistanın təxribatçı mövqeyi, status-kvonu süni şəkildə uzatmağa yönəlik siyasəti üzündən savaş ehtimalı getdikcə artmaqdadır. Bunu Rusiyanın Siyasi Tədqiqatlar İnstitutunun baş direktoru Sergey Markov da isitisna etmir. O bildirir ki, Azərbaycan zəbt edilmiş əraziləri qaytarmaqda israrlıdır:"Ermənistan bunu nəzərə almalıdır. İrəvan bilməlidir ki, savaş istənilən an başlana bilər və bu dəfə Azərbaycanı saxlamaq mümkün olmayacaq. Ermənistan Rusiyanın məsələyə müdaxilə edəcəyini düşünürsə, yanılır. İrəvan Rusiya ilə bağlı bağışlanmaz səhvlərə yol verir. Məsələn, erməni hakimiyyət strukturlarının amerikalılaşdırılması, ölkəni Amerika imperializmi siyasətinə tabe etmə prosesi baş verir. Bu, hər şeydən əvvəl, ABŞ-dakı erməni diasporunun əlaltısı olan Nikol Paşinyanın qələbəsindən sonra başladı. Təsadüfi deyil ki, Ermənistanın baş naziri komandasına çoxlu sayda qrant yeyəni, yəni ictimai və siyasi karyerası boyunca Amerika yardımlarından bəhrələnənləri daxil edib. Bununla əlaqədar olaraq, təbii ki, Rusiyaya qarşı tənqid və şübhə artmaqdadır. Onlar iqtisadi blokadanı qaldırmaq və strateji müttəfiq kimi Rusiyanı sıradan çıxarmaq üçün Qarabağ münaqişəsinin həlli istiqamətində addımlar atmaq istəyirlər. Hazırda belə hesab edirlər: Müharibə olacağı təqdirdə Moskva bizə lazımdır ki, Azərbaycan və Türkiyədən müdafiə üçün ondan istifadə edək. Amma Rusiya artıq məsələyə fərqli yanaşır. Ermənistandakı qruplaşma üçün ABŞ-a doğru addım atmaq vacibdir. Ancaq bu, Azərbaycan üçün də faydalıdır! Rusiyanın Gümrüdəki hərbi bazaya və Ermənistanı müttəfiq hesab etməyə çox da ehtiyacı yoxdur. Bu kor bucaqdır, orada operativ meydan yoxdur. İqtisadi baxımdan Ermənistan çox zəifdir. Düzdür, Rusiya Federasiyasında və digər ölkələrdə erməni icmasının loyallıq amili var. Lakin Paşinyanın nümunəsində xarici erməni icmaların Rusiyaya xüsusi loyal olmadığını görürük".

Bu arada ölkəsinin ağır durumunu dəyərləndirən Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan bəyan edib ki, Azərbaycanın yerində olsaydı, təkcə Qarabağa deyil, həm də koronavirus səbəbindən zəiflədiyi üçün Ermənistana hücum edərdi. Buna da münasibət bildirən Sergey Markov qeyd edir:" Məncə, ziddiyyətli açıqlamalar qismən qeyri-adekvatlıq, bir qədər də özünü itirməklə bağlıdır. Ermənistan rəhbərliyinin blokadanı qaldırmaq istədiyi bir vəziyyətdə nə etməli? Bunun üçün güzəştə getmək və əraziləri Azərbaycana qaytarmaq lazımdır, digər tərəfdən, buna getmək çox qorxuludur. Mənə elə gəlir ki, Nikol Paşinyan Azərbaycanın hərbi əməliyyatlara başlamasında maraqlıdır. Bir neçə günlük döyüşdən sonra bütün vasitəçilər - Rusiya, Avropa İttifaqı, Fransa və ABŞ işə qarışacaq. Onlar Paşinyanı Dağlıq Qarabağ ətrafındakı ərazilərin Azərbaycana verilməsini nəzərdə tutan "Kazan formulu" ilə razılaşmağa inandıracaqlar. Ermənistanın baş naziri həm vasitəçilərin təzyiqlərinə, həm də "DQR"in yeni rəhbərliyinə istinad etmək istəyir. Beləliklə, Nikol Paşinyan faktiki olaraq Azərbaycandan hərbi əməliyyatlara başlamağı xahiş edir, yəni bir az döyüşək, sonra isə "Kazan formulu"na gələk". Ekspert bildirir ki, istənilən halda Azərbaycan savaşa başlamaqla işğal siyasətinə son qoymaq iqtidarındadır. Bununla belə, Bakı sülh qapılarını da bağlamayıb və hələ də ümidlidir ki, ATƏT-in Minsk Qrupunun üç həmsədr dövləti işğalçını, nəhayət, ağla gətirmək üçün gərəkən addımları atacaq. Əks təqdirdə Bakı bunu savaşla edəcək. Burada o da nəzərə alınır ki, Qarabağ danışıqlarını hələ də dalandan çıxarmaq mümkün olmayıb. Yaxın tezlikdə bu durumda dəyişiklik olmasa, savaş qaçılmazdır. Bu fonda maraq doğuran məqam həm də bundan ibarətdir ki, Ermənistanın qeyri-konstruktivliyi davam etdiyi şəraitdə Azərbaycan düşməndən hərbi cəhətdən də kifayət qədər üstün olduğu halda nədən genişmiqyaslı əməliyyatlara start vermir. Ekspertlər hesab edir ki, Azərbaycan, əslində danışıqlar prosesinin növbəti mərhələsini gözləyir. Bu mərhələdə də istənilən nəticə əldə olunmazsa, Bakı hərbi müstəvidə İrəvana yenidən dərs keçməli olacaq. Buna qədər isə Azərbaycan beynəlxalq birlik tərəfindən tanınan sərhədlərinin bərpası, BMT Təhlükəsizlik Şurasının işğal edilmiş ərazilərimizin qeyd-şərtsiz azad edilməsi ilə bağlı 4 qətnaməsinin tələblərinin yerinə yetirilməsi üçün səylərini davam etdirməkdədir.

Ekspertlər qeyd edir ki, Bakının sülh danışıqlarına önəm verməsi indi Ermənistan üçün ən böyük güzəştdir. Ancaq Ermənistan bundan sonra da sülh danışıqlarında qeyri-konstruktiv mövqe nümayiş etdirsə, Azərbaycan özünün beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünü ordusunun gücü ilə təmin etmək məcburiyyətində qalacaq. Hazırda ordumuzun arsenalında olan ən müasir silahlar, tanklar, artilleriya qurğuları, döyüş təyyarələri və digər texnikalar düşmənin istənilən hədəfini məhv etməyə qadirdir. Amma İlham Əliyevin yuxarıda səslənən fikrindən aydın görünür ki, Azərbaycan hərbi gücünü daha da artırmaqda davam edir. Bu isə münaqişənin hərbi həlli zamanı düşmənə daha sarsıdıcı zərbələr vurmağa imkan verəcək.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənistanın Azərbaycana "toponim təcavüzü"nü tam ifadə edə bilmişikmi - Prezident Qarakilsə məsələsi ilə bağlı böyük problemə toxundu

**İyunun 3-də Tərtərdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edən Prezident İlham Əliyev burada Azərbaycanın müxtəlif dövrlərə aid sərgilənən xəritələrlə tanış olarkən xəritədə qədim Qarakilsə rayonunun adının Sisyan kimi göstərilməsinə irad bildirib:"Bizim tarixi adlarımız burada gərək öz tarixi adları ilə əks olunsun.**

Sisyanın əsl adı Qarakilsədir. Sonradan ermənilər buna Sisyan adı veriblər. Ona görə bunu pozun və Qarakilsə yazın".

Prezident həmçinin qeyd edib ki, indiki Ermənistan Respublikasının toponimlərinin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir, lakin müxtəlif vaxtlarda ermənilər bu toponimləri dəyişdiriblər.

Beləliklə Prezident indiki Ermənistan ərazisində Azərbaycan mənşəli toponimlərin adlarının müxtəlif vaxtlarda dəyişdirilməsini yenidən gündəmə gətirdi və bununla da tarixçilər qarşısına ermənilərin toponimlərimizə təcavüzü faktlarının geniş şəkildə tarixi sənədlər əsasında tam olaraq araşdırılması və bu faktlardan istifadə etməklə erməniləri ifşa etməklə bağlı mühüm vəzifə qoydu.

Reallıq budur ki, indiyə qədər bu məsələlər tam olaraq araşdırılmayıb. Prezident özü bütöv institutlardan çox iş görür. Halbiki, mandat alıb Milli Məclisdə oturan neçə-neçə tarixçi, onların nazmiədlik və doktorluq işinə rəhbərlik etdiyi adamlar bu işi görməlidir.

Müasir tarix elmimiz ermənilərin tiponimlərə təcavüz siyasətini tam ifşa edərək dünyanın bilgisinə çevirə bilibmi?

Qeyd edək ki, müxtəlif qurumlar tərəfindən hazırlanaraq muzeylərə verilən xəritələrin çoxunda qədim Azərbaycan ərazilərinin, toponimlərinin adları təhrif edilib, çox vaxt onlar ermənilərin qeyd etdiyi kimi göstərilib. Yadınıza gəlirsə, bu ilin mart ayında analoji hadisə ilə Tovuz Diyarşünaslıq Muzeyinin açılışında da qarşılaşmışdıq. Sözügedən muzeyin açılışında iştirak edən Prezident eksponatlarla və xəritələrlə tanış olarkən də bununla bağlı iradlarını bildirmişdi. "...Bu neçənci əsrin xəritəsidir? Gərək yazılsın. Hər bir xəritədə yazılmalıdır neçənci əsrə aiddir, çünki dövlətlər dəyişib, sərhədlər dəyişib. Bu xəritəni siz haradan götürmüsünüz?...Qədim adlar, məsələn, Sisyan yazılıbdır. O vaxt Sisyan adı yox idi, sonra kimsə bunu uydurub. Xəritədə indiki Azərbaycan ərazisində Mingəçevirdən başqa heç bir tarixi ad yazılmayıb. Halbuki, Bərdə, Qəbələ, Naxçıvan - bütün bunlar qədim şəhərlərimiz olub…"

Göründüyü kimi, Sisyanın adı ilə bağlı Prezidentin bir neçə ay əvvəl tutduğu iraddan hələ də müvafiq qurumlar nəticə çıxarmayıb.

Tarixçilər qeyd edir ki, Prezidentin iradları tamamilə haqlıdır və məsul qurumlar xəritələrin hazırlanmasına başdansovdu yanaşmamalıdır.

Qeyd edək ki, indi Sisyan adlandırılan Qarakilsə rayonu 1930-cu il sentyabrın 9-da yaradılıb. 1940-cı il martın 2-nə qədər Qarakilsə rayonu, həmin tarixdən etibarən isə Sisyan rayonu adlandırılıb. Ərazisi 1719 kv. km-dir. Rayon mərkəzi Qarakilsə (dəyişdirilmiş adı Sisyan) şəhəridir. Rayon mərkəzindən İrəvan şəhərinə qədər olan məsafə 217 km-dir.

Coğrafi vəziyyətinə görə Qarakilsə rayonu dörd tərəfdən Zəngəzur və Bərgüşad silsilələri və Sünik yaylası ilə əhatə olunub. Qarakilsənin 1988-ci ilə kimi azərbaycanlıların yaşadıqları və həmin il tərk etməyə məcbur olduqları yaşayış məntəqələri-Qızılcıq, Sofulu, Murğuz, Şıxlar, Ağüdü, Vağüdü, Urud, Ərəfsə, Comərdli, Dəstəyurd, Şəkidir.

Tarixçilər qeyd edir ki, Ermənistan SSR Ali Soveti Rəyasət heyətinin müxtəlif fərmanları ilə rayon üzrə dəyişdirilmiş tarixi yer adları çoxdur.





***Ənvər Çingizoğlu:** "Hələ Azərbaycan tarixşünaslığı bu məsələni tam araşdıraraq beynəlxalq aləmdə erməni saxtakarlığının ifşasına nail ola bilməyib"*

***Cəbi Bəhramov:** "Ermənilər Qarakilsə rayonunun adını dəyişərək ona Sisyanovun adını veriblər"*

Tarixçi-etnoqraf Ənvər Çingizoğlu "Bakı-Xəbər"ə bildirdi ki, ermənilər tərəfindən indiki Ermənistan ərazindəki qədim türk toponimlərinin, şəhər və kənd adlarının dəyişdirilməsi hələ Sovet illərindən kütləvi xarakter almağa başlayıb. Ə.Çingizoğlu qeyd etdi ki, ermənilərin məqsədi tarixi torpaqlarımızdan bizim izimiz silməyə xidmət edir. Bu gün erməni təcüvüzünə uğrayan toponimlərimizin araşdırılması istiqamətində işlər getdiyini vurğulayan Ə.Çingizoğlunun sözlərinə görə, bu sahə ilə məşğul olanlar Prezidentin iradlarından nəticə çıxararaq fəaliyyətlərini bir qədər də genişləndirməlidirlər. Ə.Çingizoğlu hesab edir ki, hələ biz erməni təcavüzünə məruz qalan, adları dəyişdirilərək erməniləşdirilən toponimlərimizlə bağlı beynəlxalq ictimaiyyətə lazımı informasiyanı çatdıra bilməmişik. "Sovet dövrünün ilk illərindən başlayaraq ermənilər indiki Ermənistan ərazindəki qədim türk şəhərlərinin, mahallarının, çay, dağ, yer-yurd adlarının dəyişdirilməsi ilə məşğul olur. Əvvəllər bunu özləri elə də açıq şəkildə edə bilmirdilər, Kremldəki erməni rəhbərlərin və ermənipərəst qüvvələrin əli ilə edirdilər. İndi isə artıq orada bir nəfər də olsa azərbaycanlı qalmayıb, bütün azərbaycanlıları deportasiya ediblər. Bundan sonra isə onların əli-qolu daha geniş açılıb. Ermənilərin Azərbaycan toponimlərini kütləvi şəkildə dəyişdirməsi, onları erməniləşdirməsi prosesinin ifşa edilməsi üçün kifayət qədər tarixi sənədlər, arxiv materialları var. Yenidən arxivlər araşdırılmalıdır. Xüsusə də çar Rusiyası dövrünə aid olan arxiv materialları çox ciddi şəkildə incələnməlidir. O materialların hər birində bu gün ermənilər tərəfindən təcavüzə məruz qalan toponimlərin hamısının adı türk dilindədir. O vaxt o yerlərin adları olduğu kimi qeyd edilib. Amma sonradan ermənilər onları saxtalaşdırmağa nail olublar. Hesab edirəm ki, hələ Azərbaycan tarixşünaslığı bu məsələni tam araşdıraraq beynəlxalq aləmdə erməni saxtakarlığının ifşasına nail ola bilməyib. Halbuki, haqlı tərəf bizik".

Müxtəlif xəritələrdə Qarakilsə rayonunun adının təhrif edilməsinin düzgün olmadığını deyən Ə.Çingizoğlu qeyd etdi ki, əslində Sisyan da bizim sözümüzdür, mənası qədim saklar diyarı deməkdir. Sisyan adının da ermənilər tərəfindən mənimsənildiyini qeyd edən tarixçi-etnoqraf hesab edir ki, bütövlükdə toponimlərimizin adları, mənşəyi, etimologiyası yenidən araşdırılmalı, onlar çap və elektron variantda müxtəlif dillərə tərcümə edilərək yayılmalıdır. "Cənab Prezidentin xəritədə Sisyan adının dəyişdirilərək Qarakilsə kimi qeyd edilməsi barədə verdiyi tapşırıq əsassız deyil, Qarakilsə rayonunun adının bərpası istiqamətində mühüm bir göstərişdir. Prezident həmişə tarixi faktlara dəqiq yanaşır və çox həssas mövzuları yada salır. Bu baxımdan Prezidentin fikirləri xüsusi önəm kəsb edir.

Orada tarixən Azərbaycan türkləri yaşayıb və bu bizim torpağımızdır. Ora ermənilər sonrakı yaxın dönəmlərdə Şərqi Anadoludan və xüsusən də Kayseri bölgəsindən köçürülüb. Ümumiyyətlə, bu bölgə bütövlükdə qədim saklarla, türklərlə bağlıdır. Və bilirsiz ki, bizim xristian keçmişimiz də var və həmin ərazilərdə kifayət qədər xristian - alban abidələri var. O rayonun adı Qarakilsədir. Qarakilsə rayonunun adının xəritədə bərpa olunması vacibdir. Ümumiyyətlə, tarixi həqiqətin bərpası istiqamətində Prezidentin bütün fikir və təklifləri, tapşırıqları biz araşdırmaçılar üçün tamamilə yeni bir platforma açır. O xəritələrdə həmin türk yurdunun hər iki adı qeyd edilməli idi. "-deyə Ə.Çingizoğlu vurğuladı.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktor müavini, professor Cəbi Bəhramov da bizimlə söhbətində bildirdi ki, Prezident tamamilə haqlıdır. Ermənilər onların işinə yarayan gürcü mənşəli Sisyanovun adını tarixi Qarakilsə rayonuna veriblər:"Bu rayonun tarixi adı Qarakilsədir. Sonradan ermənilər Qarakilsə rayonunun adını dəyişdirərək ona Sisyanovun adını veriblər. Bu gün Tarix İnstitutu erməni terroruna, təcavüzünə məruz qalan toponimlərin araşdırılması, toplanması istiqamətində işlər görür. Sisyanın da əsl adının Qarakilsəə olduğunu bizim institut tədqiq edib üzə çıxarıb. Prezident tamamilə haqlıdır və Sisyan adının Qarakilsə kimi qeyd edilməsi vacibdir. Tarix İnstitutu toponimlərimizin araşdırılması, tədqiqi istiqamətində çox işlər görür, hətta biz o materialları başqa dillərə də tərcümə edirik. Bu işdə əməyi olanlardan biri də tədqiqatçı Nazim Mustafadır".

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Erməni təcavüzünə məruz qalan toponimlərimiz...

**Qədim Azərbaycan torpağı olan indiki Ermənistan ərazisində ermənilər tərəfindən toponimlərimiz təcavüzə, terrora, sözün həqiqi mənasında soyqırıma məruz qalıb. Torpaqlarımızda yerləşdikdən sonra Qərb dövlətlərinin və Çar Rusiyasının qayğısı altında ermənilər xalqımıza, torpaqlarımıza, tarixi yer-yurd adlarımıza geniş hücum aktlarına başlayıblar.**

Artıq bir neçə onildir ki, ermənilər bizə qarşı bu əməlləri davam etdirir. Qərbi Azərbaycan yurdlarına ermənilərin kütləvi köç etməsi son 100-200 ilin hadisəsi olsa da, onlar özlərini burada "yerli xalq" kimi qələmə verməkdən yorulmur. Dünyanın haqq-ədalət tarixi bu yurdların qədim türklərə məxsus olduğunu sübut edir, ermənilərin saxta, əldəqayırma tarixçiləri isə bunun əksini bəyan edir.

Hazırda Qərbi Azərbaycan, indiki Ermənistan ərazisində ermənilərdən başqa ikinci bir millət yaşamır. Yaşayanlar isə məcburiyyət qarşısında qalıb həm milliyyətini, həm də dinini, təriqətini dəyişir. Tarixdə saxtakarlıq və sünilik sahəsində birinci olan ermənilər 200 ilə yaxındır Qərbi Azərbaycanda bizim tariximizi saxtalaşdırmaqla, türk mənşəli toponimləri dəyişdirib erməniləşdirməklə məşğul olur. Onlar tarixdə bir neçə dəfə Azərbaycan türklərinə qarşı amansızlıq edib, hətta onları öz ata yurdlarından deportasiya etməyə də müvəffəq olub. Tarixçilər bildirir ki, daşnak ermənilərin planında türklərə aid torpaqları ələ keçirmək, onları öz yurdlarından qovmaq əsas məsələ olub. Ermənilər bu işə əvvəlcə mənəvi təxribatdan başlayıb. Yer-yurd adlarımızın, toponimlərimizin adlarının erməniləşdirilməsi bu məkrli siyasətin tərkib hissəsidir. Ermənilər indiyə qədər minlərlə türk mənşəli toponimin dəyişdirilməsini həyata keçirib. Onlar kənd, rayon adlarını erməniləşdirməklə işlərini bitmiş hesab etmir, dağ, meşə, bulaq və s. adlarını da saxtalaşdırır. Məsələn, türk tarixində, coğrafiyasında, mənəviyyatında, eposlarında önəmli yer tutan Ağrı dağının adına ermənilərin etdiyi təcavüz ürək ağrıdan bir haldır. Onlar başından sis-duman heç vaxt əskik olmayan Ağrı dağını Ararat adlandırmaqdan çəkinmir. Halbuki, bu dağ türklərin milli simvollarından biri kimi tarixdə yer alıb. Onun ermənilər tərəfindən mənimsənilməsi cinayətdir. Belə hallar bir toplumun başqa bir xalqa qarşı etdiyi mənəvi cinayət sayılır.

Erməni saxtakarlığının ifşa edilməsi sahəsində yerli alimlər və dünya alimləri böyük işlər görür. Onların köməyinə tarixi sənədlər, xəritələr gəlir. Toponimlərimizi erməniləşdirən ermənilərin saxtakarlığını ifşa edən arxiv materialları çoxdur. 1903-cü ilə aid olan coğrafi xəritə erməni iddialarını altüst edib. Söhbət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 aprel 2012-ci il tarixli Sərəncamına əsasən Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən çap olunan "Cənubi Qafqaz. 1903-cü il" xəritəsindən gedir. Üç dildəingilis, rus və Azərbaycan dillərində nəşr olunan xəritələrin nüsxə sayı hər bir dildə 25 min ədəddir. Sərəncamda bildirilib ki, son vaxtlar ayrı-ayrı ölkələrdə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, tarixi və coğrafi adlarının təhrif olunması, inzibati ərazi vahidlərinin, sərhədlərinin dəyişdirilməsi istiqamətində təxribat xarakterli materialların xəritələrdə və kütləvi informasiya vasitələrində yayılması halları artıb.

Xatırladaq ki, "Karta Kavkazskoqo Voennoqo Okruqa 1903-qo qoda" xəritəsi ümumilikdə bütün Qafqazı əhatə edir. 1903-cü il xəritəsi Qafqaz Hərbi Dairəsinin litoqrafiya və hərbi topoqrafiya şöbəsində tərtib olunub. Xəritə XX əsrin lap başlanğıcında nəşr edildiyi üçün bədnam qonşularımızın əsassız iddialarına cavab verməli məsələsində mühüm əhəmiyyətə malikdir. Xəritəyə baxan hər kəs görür ki, indiki Ermənistanın bütün toponimləri Azərbaycan-türk mənşəlidir. Ermənilərin saxtakarlığı nəticəsində toponimlərimizə təcavüz edilib. Sirr deyil ki, ermənilərin Qərbi Azərbaycana köçü başlar-başlamaz, türk mənşəli toponimlərə qarşı çox iyrənc bir "xaç yürüşü" başlandı. Bir tərəfdən Rusiya, digər tərəfdən onların tarixi əlaltısı olan ermənilər coğrafiyamıza hücuma keçdi. Nə qədər toponimlərimizi öz adlarına çıxdılar. Tarixi sənədlərə nəzər salsaq görərik ki, onlar İrəvanın lap yaxınlığında yerləşən Molla Dursun, Kərpicli, Qurbağalı, Yeni Bəyazit, Qaraqola, Qızıldağ, Ahdağ və sair toponimlərimizi dəyişdirib. Bunlar Prezidentimizin Sərəncamı ilə nəşr olunan "Cənubi Qafqaz. 1903-cü il" xəritəsində də yer alan toponimlərdir. O xəritəni indiki Ermənistan ərazisilə müqayisə etdikdə görürük ki, burada erməni mənşəli tək-tük yaşayış məntəqələrinə rast gəlinir. Dağ, çay, çöl, meşə, düzəngah, el-oba adlarının 99 faizi tamamilə türk mənşəlidir. Məlumdur ki, dağ, çay adları yaşayış məntəqələrindən daha əvvəl yaranıb. Bu da bu ərazilərdə bizim babalarımızın daha erkən dövrlərdə yurd saldığını, ocaq qaladığını sübut edən faktdır. Xəritədən də aydın görsənir ki, bura azərbaycanlılara məxsus bir ərazidir. Təkcə müasir Ermənistan ərazisi deyil, Gürcüstan, Rusiya, İran və Türkiyə ərazisi də Azərbaycan mənşəli toponimlərlə zəngindir. Bunlar da çox maraqlı bir araşdırma mövzusudur. Ümumiyyətlə, türklər harada yurd salıblarsa, həmin yerə sonradan yox, birinci gedən olublar. Yəni o yeri tapıb ora gediblər, yurd-yuva qurub, oğul-uşaq, nəvə-nəticə, kötücə sahibi olublar. Həmin yerlərdə qaynayıb-artıb böyük nəsillərin, şəcərlərin, böyük mənada isə dövlətlərin əsasını qoyublar. Bu mənada indiki Ermənistan adlandırılan ərazidə Azərbaycan türkləri min illərdir yaşayıb. Təəssüf ki, bu gün onlar erməni məkri, zorakılığı nəticəsində öz yurdlarını yağıya qoyub qaçqın düşüblər. Yağının yağmaladığı yurdda qalmağı əbədi ola bilməz, bir gün o özünə aid olmayan bir yerdə qalmaqdan bezib yeni vətən axtarmaq eşqinə düşəcək. Onda bizim soydaşlarımız da elliklə öz ana yurdlarına dönəcək. Yenə də toponimlərimiz öz adı ilə çağırılacaq, bu da qondarma adların sıradan çıxmasına gətirib çıxaracaq.

AzərTac-ın məlumatına görə, XX əsrin əvvəllərində bu gün Ermənistan adlandırılan ərazidəki 2310 coğrafi addan 2000-i türk mənşəli olub. Məhz həmin ərazidə və Dağlıq Qarabağda zaman-zaman Azərbaycan tarixinə aid toponimlər kütləvi şəkildə dəyişdirilib. Ona görə də toponimlərimiz haqqında ictimaiyyətimiz, xüsusilə gənc nəsil daha məlumatlı olmalıdır. Bu mənada cənab Prezident İlham Əliyevin Tərtərə səfəri zamanı rayon ictimaiyyəti ilə görüşündə toponimlər məsələsini diqqətdə saxlaması hər bir Azərbaycan vətəndaşı, xüsusilə tarixçilər qarşısında mühüm vəzifələr qoyur.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, indiki Ermənistan ermənilərin yox, türk mənşəli tayfaların yaşadığı ərazi olub: "Buna görə də 1826-1828-ci ilə qədər bu ərazidəki yaşayış məntəqələrinin hamısının adı türk mənşəlidir. 1828-1830-cu illərdə Cənubi Qafqaza İrandan 40 min, Türkiyədən 84 min erməni köçürülüb. 1893-1895-ci illərdə isə indiki Ermənistana 900 min erməni köçüb. Yalnız bundan sonra İrəvan quberniyasında ermənilərin sayı azərbaycanlıların sayından çox olub. Ermənilərin növbəti addımı türk mənşəli toponimləri dəyişdirmək olub. Bəzi adları tərcümə ediblər, bəzilərinə yeni erməni adları qoyublar. Toponimlərin dəyişdirilməsi ilə bağlı müəyyən tədqiqatlar aparılsa da, bütün bunlar yetərli deyil" - qeyd edən V.Rəhimzadə onu da vurğulayıb ki, sahədə tədqiqat işlərinin davam etdirilməsi və gənclərə çatdırılması həm tariximizin qaranlıq səhifələrinə işıq salınması, həm də Ermənistanın təcavüzkar siyasətinin ifşası baxımından əhəmiyyətlidir: "Ermənistanın ölkəmizə qarşı apardığı informasiya müharibəsi çərçivəsində irəli sürdüyü əsassız iddialara tutarlı cavab vermək üçün müdafiə olunmaq yox, əks-hücuma keçmək lazımdır. İşğalçı Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə iddialarının əsassız olduğunu göstərməyin təsirli yollarından biri də ermənilərin bu diyara köçürüldüklərini və burada olan toponimləri sonradan dəyişdirmələrini sübut etməkdir. Bugünkü Ermənistan ərazisindəki toponimlərin nəşr olunan xəritələrdə və digər sənədlərdə Azərbaycan mənşəli adlarının göstərilməsi yaxın tariximizin unutdurulmaması baxımından da vacibdir".

Həmçinin onun vurğuladığına görə, xalqımıza məxsus toponimlərin dəyişdirilməsi məsələsi araşdırılıb və bəlli olub ki, Azərbaycan mənşəli toponimlər mərhələ-mərhələ erməniləşdirilərək təcavüzə məruz qalıb. Bununla da Ermənistan tərəfindən təkcə işğal olunmuş ərazilərdə yerləşən 300-dək coğrafi ad dəyişdirilərək erməniləşdirilib: "Ermənistan tərəfindən Azərbaycan toponimlərinin saxtakarlıq yolu ilə dəyişdirilməsi və müxtəlif üsullarla uydurma erməni adları ilə əvəz edilməsi bir neçə üsulla baş verib. Birincisi, Azərbaycan mənşəli toponimlər bütövlüklə erməni adları ilə əvəz edilib. İkincisi, keçmiş sovet dövründə dəyişdirilən bəzi toponimlərin erməni yazılış variantı saxlanılıb. Üçüncüsü, işğal altında olan ərazilərin toponimlərindən başqa respublikanın digər yer adlarına da təcavüz edilərək toponimlər təhrif edilməklə qismən dəyişdirilib. Dördüncüsü, hərfi tərcümə nəticəsində adlar dəyişdirilib. Beşincisi, bir qisim toponimlər isə bəzi fonetik dəyişdirilməyə məruz qalmaqla hazırda mövcud olduğu kimi saxlanılıb".

"Göründüyü kimi, Ermənistan təkcə Azərbaycanın torpaqlarına deyil, eyni zamanda, tarixinə, toponimlərinə də təcavüz edib"-deyə bildirən V.Rəhimzadənin sözlərinə görə, bu səbəbdən də Azərbaycan mənşəli coğrafi adların düzgün şəkildə dünya ictimaiyyətinə çatdırılması üçün daha əzmlə mübarizə aparılmalı, müntəzəm olaraq saytlarda Ermənistan tərəfindən təcavüzə uğrayan Azərbaycan toponimlərinin dəyişdirilməsi ilə bağlı yayılan saxta informasiyalar haqqında müvafiq qurumlara vaxtında məlumat verilməli və onların sıradan çıxarılmasına qarşı müntəzəm surətdə tədbirlər görülməlidir. Bu işdə əlbəttə ki, mətbuat nümayəndələrinin və tarixçilərin üzərinə daha böyük məsuliyyət düşür.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Koronavirus Ermənistanı həm daxildən, həm də xaricdən çökdürür - Paşinyanın "yoluxma oyunu" isə onun ölkəsindəki olan-qalan nüfuzunu da yerlə bir etdi

**Bu gün Cənubi Qafqaz ölkələri arasında koronavirusla bağlı ən fəlakətli vəziyyət Ermənistanda müşahidə edilir. Son məlumatlara əsasən, Ermənistanda koronavirusa yoluxanların sayı 11 minə, bu virusdan həyatını itirənlərin sayı isə 200-ə yaxınlaşır. Amma fəlakətin miqyasının daha böyük olması gözlənilir.**

Bunu hətta Ermənistanın baş naziri Nikol Paşinyan özü belə etiraf edir.

Paşinyan bildirir ki, Ermənistanda koronavirusla bağlı vəziyyət fəlakət həddindədir. O, son günlər Ermənistanda koronavirusa yoluxma və pandemiyadan ölüm hallarının çoxalmasından narahatlığını vurğulayaraq deyib: "Bu fəlakətdir". Amma məsələnin həm də maraqlı tərəflərindən biri odur ki, indiki vəziyyətdə koronavirus Paşinyanın taxtını laxladan əsas faktorlardan birinə çevrilməkdədir. Müxalifətdə olan Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov bu xüsusda bildirir:"Gündən-günə ikiqat artan ölümlərin və sağlamlıq xaosunun cavabdehi Nikol Paşinyandır. Paşinyan və onun komandası hər şey etdi ki, ölkəmizdə sağlamlıq, humanitar və iqtisadi xaos baş versin. Vaxtilə mən koronavirus özünün pik həddinə çatmayana qədər məhdudiyyətlərin aradan qaldırılmasının lazım olmadığını söyləyəndə cənab misilsiz həmişəki kimi "eşşək qovurdu" və cinayətkar əzmlə məhdudiyyətləri aradan qaldırırdı. Nəticədə gündəlik olaraq yüzlərlə yoluxanlarımız və ölənlərimiz olur. Təəssüf ki, Ermənistan hökuməti bu müharibədə xalqı tək qoydu".



"Parlaq Ermənistan" partiyasından olan deputat Mane Tandilyan isə qeyd edir: "Ermənistan xalqı hökumətin onu qoruya bilmədiyini görür. Vətəndaşların uzun müddətdir heç bir qaydaya əməl etməmələri də səhiyyə nazirinə etimadsızlığını göstərir". Onun sözlərinə görə, hökumət koronavirusla mübarizədə uğursuz oldu, çünki tədbirlər vaxtında görülməli idi:"Xalq arasında koronavirusa qarşı qeyri-ciddi münasibət yayılıb. Ümid edirəm ki, vətəndaşlarımız bir vaxtlar virusun yayılmasına istehza ilə yanaşan və indi çaxnaşma içində olan hökumətdən daha ehtiyatlı olacaqlar". Tandilyan, həmçinin deyib ki, Nazirlər Kabineti tədricən koronavirusla mübarizənin məsuliyyətini vətəndaşların çiyinlərinə qoyur:"İnsanlar fövqəladə vəziyyətdə hökumətin onu qoruya bilmədiyini və tədricən bu məsuliyyəti üzərindən atdığını görür. Təkəbbürü bir kənara qoyub, bu vəziyyətdən necə çıxacağımızı bilən xarici mütəxəssisləri cəlb etməliyik".

Ermənistanın "Milli Gündəm" partiyasının həmtəsisçisi Avetik Çalabyan da vəziyyətin qəliz olduğunu bildirir:"Ermənistanda virusla bağlı vəziyyət dəhşətli istiqamətdə inkişaf edir. Ötən həftənin sonunda Ermənistan baş naziri Nikol Paşinyan vəziyyətin nəzarətdən çıxdığını və İtaliya ssenarisinin özünəməxsus üslubda yaxınlaşdığını qəbul edib. Ermənistanda koronavirusdan ölüm dünyada ən yüksəklərdəndir, bu, pandemiya əleyhinə mübarizənin də uğursuz olduğunu göstərir". Yaranmış vəziyyətdə baş nazirin vəziyyəti daha pis məcraya yönəltdiyi üçün istefasını tələb edənlərin sayı artır. Amma koronavirus təkcə Ermənistanın daxili həyatına zərbə vurmayıb. Erməni mediası xarici siyasət sahəsində də acınacaqlı durum yarandığını bildirir. Xüsusən də Rusiya ilə bağlı Paşinyanın koronavirus gedişləri artıq mənfi effekt doğurur. Rusiyanın "Moskovskiy komsomolets" qəzeti yazır ki, Paşinyan koronavirusa yoluxduğunu bildirsə də, burada şübhəli məqamlar var:"Ermənistanın 45 yaşlı baş naziri Nikol Paşinyan öz doğum günündə bildirib ki, onda və ailə üzvlərində koronavirus aşkar edilib. Paşinyan və ailə üzvlərinin hər hansı simptomları yoxdur. Lakin özlərini təcrid etməyə qərar veriblər. Elə görünürdü ki, Paşinyanın xəstəliyinə görə təəssüflənməli idilər. Ancaq Ermənistanda çoxları düşünür ki, hökumət rəhbəri hiyləgərlik edir". Qəzetin yazdığına görə, Paşinyan epidemiya əleyhinə təhlükəsizliyin bütün qaydalarına riayət etdiyini iddia edir, lakin bildirir ki, bunlar onu yoluxmaqdan xilas etməyib:"Bununla belə, Paşinyan dövləti idarə etməkdən imtina etməyə hazırlaşmır. Növbəti iki həftə ərzində o, ölkəni Sevandakı hökumət evindən idarə edəcək. Həyat yoldaşı Anna Hakobyan da tanışları və yaxınları ilə ünsiyyətlərini dayandırıb, Ermənistanda uşaqlar gününə həsr olunmuş konsertdə iştirak etməkdən imtina edib". Qəzet bildirir ki, bununla Paşinyan miskin görkəm yaratmaq istəsə də əhali ona inanmır. Eyni zamanda daha bir məqam da Rusiaya ilə bağlıdır. "Erməni Qartalları - Birləşmiş Ermənistan" partiyasının sədri Xaçik Asryan məhz bu fonda Paşinyanın koronavirusa yoluxduğuna şübhə edir. Partiya rəhbəri baş naziri saxtakarlıqda və yalan danışmaqda ittiham edib:"Nikol Paşinyan, doğrudan da koronavirusa yoluxmusunuz, ya bir daha erməni xalqını aldadırsınız ki, xəstələnmək iddiası ilə amerikalı şeflərinin əmri ilə iyunun 24-də Moskvada keçiriləcək Böyük Vətən müharibəsində qələbənin 75 illiyinə həsr olunmuş rəsmi tədbirdə və paradda iştirak etməyəsiniz?" O, dolayı yolla Ermənistan baş nazirini Rusiya prezidenti Vladimir Putinlə üz-üzə gəlməkdən boyun qaçırmaqda ittiham edib. Partiyanın yaydığı məlumatda bildirilib ki, Nikol Paşinyan son iki ildə Ermənistanın idarəetmə sisteminə, sosial-iqtisadi və hərbi-siyasi fəaliyyətinə, xarici siyasətinə xələl gətirib, eyni zamanda dövlət səviyyəsində koronavirusa qarşı mübarizəsi tamamilə uğursuzdur:"Bundan əlavə, Ermənistanda fövqəladə vəziyyət rejimini uzadan Nikol Paşinyan özünün çökmüş və antimilli hökumətinin ömrünü uzatmağa çalışır.

Hakimiyyətə qarşı mitinqləri qəsdən qadağan edərək, Ermənistan Milli Məclisində antimilli qanunların qəbul edilməsinə, habelə, Avropa Şurası tərəfindən tətbiq olunan pozğun konvensiyaların ratifikasiyasına şərait yaradır. Nikol Paşinyanın anti-dövlət, konstitusiyaya zidd qərarlarını həyata keçirən parlamentinin deputatları, şübhəsiz ki, erməni xalqı tərəfindən pislənəcək və qanunun ən sərt diqtəsi ilə cəzalandırılacaqlar". Xaçik Asryan qeyd edir ki, Paşinyanın hərəkətlərinə Rusiyanın reaksiyası çox sərt olacaq.

***Nahid SALAYEV***

**Son 10 gün ərzində ölkə ərazisində koronavirusa yoluxanların sayı artan dinamika üzrə davam edir. İyunun 3-də koronavirusa yoluxma sayında rekord göstərici qeydə alınıb. Belə ki, həmin gün 325 nəfər koronavirusa yoluxub, 5 nəfər isə vəfat edib. Virusa yoluxma sayının artması hökuməti də narahat edir.**

# Həftə sonları Azərbaycanda sərt karantin qaydalarını artan vətəndaş məsuliyyətsizliyi yaratdı...

## Rüfət Quliyev: "İnsanlar məsuliyyətini dərk etməli və TƏBİB-in metodiki göstərişlərinə maksimum əməl etməyə çalışmalıdırlar"




İyunun 4-də keçirilən Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində karantin rejiminin yenidən sərtləşdiriləcəyi bildirildi.

TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı media nümayəndələrinə açıqlamasında qeyd edib ki, yoluxanlarla sağalanların arasındakı fərq 200-ü keçib. Bu alqoritm həftə sonları məhdudlaşdırmanı gündəmə gətirib: "Bizim bu barədə müraciətimiz dəyərləndirilib. Cümə günü axşamdan etibarən bazar ertəsi səhərədək tam küçəyə çıxmağın qadağan olunması ilə bağlı təkliflərimiz hazırdır. Birinci klastra Bakı, Sumqayıt, Gəncə, Abşeron rayonu və Lənkəran şəhərləridir. Bakı şəhəri başda olmaqla, bu şəhərlərdə və rayonda yoluxmanın intensivliyi yüksəkdir. Bu, həftəsonu, ola bilsin ki, irəlidəki 1-2 ay ərzində bütün həftə sonları, hətta həftə sonları bayrama yaxın günlər də olacaqsa, bəlkə 3-cü gün də əlavə etməklə 2 və ya 3 günlük tam şəkildə küçəyə çıxmaq qadağasının tətbiq olunması ilə bağlıdır.

Ola bilsin irəlidəki aylarda hər həftəsonu, bayramlar da daxil olmaqla, küçəyə çıxmaq tam qadağan olunsun. Operativ Qərargahda bizim təkliflərimizlə bağlı qərar qəbul olunub".

İctimaiyyət nümayəndələri, ziyalılar, millət vəkilləri karantin rejiminin sərtləşdirilməsinə tərəfdardırlar.

Millət vəkili Rüfət Quliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, son günlər yoluxmaların sayında müşahidə olunan artım sərt karantin rejiminin yumşaldılmasından sonrakı dövrdə müəyyən qrup insanların TƏBİB-in açıqladığı metodiki göstərişlərə əməl etməməsi, ictimai nəqliyyatda, qapalı məkanlarda tibbi maska taxmaması, sosial məsafəni gözləməməsi və laqeydliyinin nəticəsidir: "Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, Nazirlər Kabineti yanında Operativ Qərargah infeksiyanın Azərbaycanda qeydə alındığı gündən məqsədyönlü fəaliyyət göstərib. Sərt karantin rejiminin mərhələlərlə yumşaldılmasına başlanan müddətədək yoluxmanın və itkinin minimuma endirilməsi, eyni zamanda, bu dövrdə ölkənin tibb müəssisələrinin bu sahədə yüksək səviyyəli kadrlarla və texniki avadanlıqlarla təchizatı təmin edilib, laboratoriyalar yaradılıb. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırıq və tövsiyələrinə uyğun olaraq, görülən işlər, əldə edilən uğurlar Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də yüksək qiymətləndirilib, Azərbaycan nümunəvi ölkə kimi qeyd olunub. Bir sözlə, dövlət üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib və bu gün də yerinə yetirməkdədir. Bundan sonrakı mərhələdə əsas həlledici amil vətəndaş məsuliyyəti idi".

> "Bəzi insanlar şənbə-bazar günləri evdə oturmaqdansa, boş-boşuna küçələrdə gəzməyə üstünlük verirlər, nəticədə isə virus sürətlə yayılır"

Millət vəkili onu da vurğuladı ki, vətəndaşların əksəriyyətinin son zamanlar karantin rejiminin tələblərinə ciddi əməl etməməsinə görə yoluxan və sağalanlar arasında kəskin fərq yaranıb. "Nəzərə alınmalıdır ki, bu virus hələ bizim aramızdadır və insanlar bu virusla yaşamağı öyrənməlidirlər. Çünki virusla bağlı vaksinin nə zaman hazır olacağı bilinmir. Buna görə də insanlar məsuliyyətini dərk etməli və TƏBİB-in metodiki göstərişlərinə maksimum əməl etməyə çalışmalıdırlar. Çünki cəmiyyətin uzun müddət sərt karantin rejimində yaşaması mümkün deyil. Buna görə də bir sıra ölkələrdə olduğu kimi, Azərbaycanda da müxtəlif sahələrlə bağlı metodiki göstərişlər təsdiqlənib, qaydalar müəyyənləşib. Buna uyğun olaraq da mərhələli sərt karantin rejiminin yumşaldılmasına başlanmışdı. Bu sadə tələblərə riayət etmək, ictimai nəqliyyatda, qapalı məkanlarda tibbi maska taxmaq, sosial məsafəni gözləmək bu virusdan qorunmağın ən asan və rahat yoludur.

Ancaq xüsusən sərt karantin rejiminin yumşaldılması ilə bağlı son qərardan sonra təəssüf ki, maska taxılmaması, sosial məsafənin gözlənilməməsi meylləri artıb. Digər tərəfdən, bayram günlərində insanların laqeydliyi nəticəsində yoluxmaların sayında nəzərəçarpacaq artım, yoluxanların sayının sağalanların sayından çox olması qeydə alındı. Həftə sonlarında insanların küçəyə çıxma qadağasının tətbiq olunması düzgündür. Bəzi insanlar şənbə-bazar günləri evdə oturmaqdansa, boş-boşuna küçələrdə gəzməyə üstünlük verirlər. Nəticədə isə virus sürətlə yayılır. Bu səbəbdən də şənbə-bazar günləri koronavirus tam yox olana qədər küçəyə çıxılmamalıdır".

***Günel CƏLİLOVA***

**Nazirlər Kabineti yanında Operativ Qərargahın mətbuat konfransında TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı bildirib ki, karantinlə bağlı qadağaların bəzi kəndləri də əhatə edəcəyi gözlənilir:**

# Azərbaycanda koronavirusla yeni mübarizə taktikası - bəzi kəndlər də təcrid edilə bilər...

## Məhərrəm Zülfüqarlı: "Hökumət əhalini qorumaqdan ötrü bu cür addımlar atır"




"Bu dəfə məhdudiyyətlərin tətbiqi birinci klastrda, yəni narıncı sahədə nəzərdə tutulur. Növbəti həftə ərzində məhdudlaşmaya bütün ölkə ərazisi daxil edilə bilər. Hazırda bu məsələ müzakirə mərhələsindədir. Bu yenə də epidemioloji vəziyyətdən və bölgələrimizdə insanların qaydalara əməl etməsindən asılıdır".

R.Bayramlı qeyd edib ki, böyük şəhərlərlə yanaşı, bir sıra kəndlərdə vəziyyət narıncı sahənin epidemioloji göstəricilərinə uyğun olsa, həmin kəndlərdə də məhdudiyyət tətbiq olunacaq: "Bütöv rayon olmasa da, kəndlərdə həftə sonları çölə çıxmağın tam qadağan olunması tətbiq oluna bilər. Qeyd edim ki, bir neçə gündür bəzi kəndlərimizə giriş-çıxış dayandırılıb. Hətta kəndlər içərisində bəzi yaşayış sahəsinə belə giriş-çıxış dayandırılıb. Beynəlxalq təcrübədə də bundan dəfələrlə istifadə olunub. Orada testi pozitiv çıxan şəxslərin müayinələri aparılıb, müvafiq xəstəxanalara yerləşdirilib. Neqativ olan şəxslər isə müvafiq olaraq karantin rejimində saxlanılırlar".

Görünən odur ki, Azərbaycanda koronavirusa yoluxma və ölənlərin sayında baş verən artımlar müvafiq qurumları bu barədə daha sərt addımlar atmağa vadar edib. Bu məsələdə vətəndaş məsuliyyəti əsas meqamdır. Təəssüf ki, insanlarımızın əksəriyyəti bunu dərk etmir və ya dərk etmək istəmir.

Bütövlükdə bir sıra kəndlərdə də məhdudiyyətlərin tətbiqinə ekspertlər necə baxır?

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının fikrincə, müəyyən məsələlər hökuməti bəzi addımlar atmağa vadar edir: "Məsələ ondadır ki, son vaxtlar virusa yoluxanların sayı artıb. Əhali qaydalara əməl etmir. Nəticədə həm özlərinin, həm də digərlərinin həyatını təhlükəyə atırlar. Bu da öz növbəsində sanitar-epidemioloji vəziyyəti çətinləşdirir.

> "Ona görə də bəzi kəndlərdə məhdudiyyətlərin tətbiq olunması doğru qərardır"

Hökumət əhalini qorumaqdan ötrü bu cür addımlar atır. Virusdan ölkənin heç bir ərazisi tam sığortalanmayıb. Elə rayonlar var ki, orada kəndlərdə gedişgəliş intensivdir və virusun yayılması halları var. Ona görə də bəzi kəndlərdə məhdudiyyətlərin tətbiq olunması doğru qərardır. Pandemiya səngiyənə qədər bənzər addımların atılması davamlı ola bilər. Nəzərə almaq lazımdır ki, virus baxmır bu kənddir, yoxsa şəhər".

***Vidadi ORDAHALLI***

# Uğursuz faiz siyasəti üzündən əhali əmanətlərini banklardan qaçırır...

**Aparılan təhlillər bank sektorunda əmanətlər üzrə faiz dərəcələrinin azalmaqda olduğunu üzə çıxarır. Halbuki, banklar əmanət faizlərini azaltsalar da, kredit faizlərində yenə əvvəlki kimi hansısa ciddi dəyişiklik etmir.**

Bu vəziyyət, öz növbəsində, əhalinin əamənətlərini banklardan geri çəkməsi ilə müşayiət edilməkdədir.

Mərkəzi Bankın statistikasına əsasən, may ayının 1-nə manatla depozit və əmanətlər üzrə orta faiz dərəcəsi 8,73%, xarici valyuta ilə 1,63% təşkil edib. Ötən ayla müqayisədə manatla depozit və əmanətlər üzrə orta faiz dərəcəsi 0,22 faiz bəndi, xarici valyutada depozit və əmanətlər üzrə orta faiz dərəcəsi isə 0,12 faiz bəndi azalıb. Hüquqi şəxslərdən manatla depozitlər ortalama 5,71%, xarici valyutada isə 1,07%-dən cəlb edilib. Elə bu səbəbdən əhali banklara əmanət yerləşdirməsini azaldıb. Eyni zamanda, banklardan geri götrülən vəsaitlərin də həcmi sürətlə artır. Ekspertlər baş verənləri təhlükəli hal adlandırır. İlk növbədə ona görə ki, əhalinin banklardan əmanətlərini geri çəkməsi bankların özü üçün maliyyə baxımından çətinlik yaradır. Yenə də cari ilin may ayının 1-nə olan statistikaya əsasən, ölkədə paytaxt və regionlar üzrə cəlb olunmuş əmanətlər 7 milyard 758 milyon manat təşkil edib. Cari ilin aprel ayının 1-nə isə əmanətlərin həcmi 8 milyard 252 milyon manat idi ki, bu da əmanətlərin bir ayda 494 milyon manat və yaxud 6% azalması deməkdir. Bu azalmanı şərtləndirən başlıca amil məhz əmanət faizlərinin əhəmiyyətli dərəcədə aşağı düşməsidir. Azalma, əsasən Bakıda özünü daha qabarıq büruzə verir. Belə ki, qeyd edilən dövrdə cəlb olunmuş əmanətlərin 6 milyard 995 milyon manatı Bakı şəhərinin sakinlərinə məxsusdur. Onu da qeyd etmək lazımdır ki, Bakı şəhəri üzrə cəlb olunmuş əmanətlərdə son 1 ay ərzində 338 milyon 478 min manat azalma müşahidə olunub.

Məlumat üçün onu da qeyd edək ki, cəlb edilmiş vəsaitlərin 3 milyard 481 milyon manatı milli valyutada olan əmanətlərdir və orta faiz dərəcəsi 6% təşkil edir. 4 milyard 277 milyon manat həcmində əmanətlər isə xarici valyutadadır və onun orta faiz dərəcəsi 1,4 faizdir. Ekspertlər hesab edir ki, əmanətlərdə faiz azaldıqca, əhalinin banklara depozit qoyması daha da azalacaq. Halbuki, yuxarıda qeyd olunduğu kimi, kredit faizləri azalmır. Milli valyutada kreditlər üzrə faiz dərəcələri orta hesabla 24 faizədək, bəzi banklarda 29 faizədək yüksəlir. Xarici valyutada kredit faizləri 15 faiz ətrafında dəyişir. Bu ondan xəbər verir ki, əmanət faizləri ilə kredit faizləri arasında nəinki faiz, hətta bir neçə dəfə fərq var. Düzdür, əmanət faizləri ilə kredit faizləri arasındakı münasibətin qorunub saxlanmasına ehtiyac var. Amma bu fərq artıq dəfələrlə ölçülməməlidir. Beynəlxalq təcrübəyə də müraciət edildikdə, Azərbaycanda depozit faizləri ilə kredit faizləri arasındakı fərqin böyük olması diqqəti cəlb edir. Demək olar ki, beynəlxalq təcrübədə depozit faizləri ilə kredit faizləri arasında fərqin dəfələrlə ölçülməsini müşahidə etmək mümkün deyil. İnkişaf etmiş ölkələrdə kredit faizləri daha aşağıdır və 3-5 faiz intervalında dəyişir. Depozitlər üzrə faizlər də aşağıdır və 1-2 faiz intervalında dəyişir. Amma buna rəğmən, kreditlə depozit faizləri arasında fərq böyük deyil. Beynəlxalq təcrübədə depozit faizləri ilə kredit faizləri arasındakı fərqin hər halda inzibati yolla tənzimlənməsi baş verməsə də, bazar bu fərqi tənzimləyir. Ölkəmizdə isə banklar üzündən vəziyyət fərqlidir. Burada nəzərə almaq lazımdır ki, Azərbaycanda depozit portfeli kredit portfelinin təxminən yarısını təşkil edir. Bu da ondan xəbər verir ki, depozit portfeli kreditlərin verilməsində kifayət qədər böyük paya malikdir. O baxımdan bu gün depozit faizləri ilə kredit faizləri arasındakı fərq, əslində, bankların özünə zərərdir. Çünki əhali əmanətləri geri çəkir, kreditlərə tələb azalır. İndiki halda isə depozit və kredit faizlərində fərqin yaranmasının əsas səbəbi bankların yenə də daha çox gəlir əldə etməyə çalışmasıdır. Qısa müddətə daha çox gəlir əldə etmək prinsipi banklar üçün prioritet olaraq qalır. Bu özünü kredit strukturunda da göstərir. Bu gün də bankların təklif etdiyi kreditlərin az qala yarısı istehlak kreditləridir. Yaranmış vəziyyətdə hesab edilir ki, əmanətlə kredit faizləri arasındakı münasibətin tənzimlənməsinə ehtiyac var. Əks halda banklar vətəndaşdan aşağı faizlə pulu cəlb edib daha yüksək faizlə kredit kimi təklif etməkdə davam edəcək. Bu halda əhalinin banklardan əmanətini geri çəkməsi isə bank sektorunda maliyyə baxımından ciddi problemlər yarada bilər.




Digər tərəfdən də ekspertlər hesab edir ki, kredit faizləri ilə bağlı vəziyyət mütləq tənzimlənməlidir. Çünki kredit faizlərinin yüksək olması son nəticədə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi istiqamətində strategiya ortaya qoyan hökumətin planlarına da neqativ təsir göstərir. Ən azı o baxımdan ki, bu, maliyyəyə çıxış imkanlarını məhdudlaşdırır. Hesab edilir ki, vəziyyətdən çıxış yolu kimi müəyyən addımların atılması, lazım gələrsə, banklara inzibati yola təsir göstərilməsi həyata keçirilməlidir. Məsələn, faktdır ki, bankların hazırda maliyyə mənbələrinə çıxış imkanları da məhduddur. Bu özünü daha çox mərkəzləşmiş kreditlərdə göstərir. Burada müxtəlif səbəblər var. Səbəblərdən biri odur ki, banklar götürdükləri vəsaitləri yerləşdirə bilmirlər. Bu səbəbdən də vəsait cəlb etməkdə maraqlı deyillər. İkinci səbəb isə ondan ibarətdir ki, banklar daha genişləndirilmiş kredit siyasəti həyata keçirərkən belə mərkəzləşmiş kreditlərdən kifayət qədər yararlana bilmirlər. Bu səbəbdən bankların mərkəzləşmiş kreditlərə çıxışının asanlaşdırılması vacib sayılır. Araşdırmalar göstərir ki, Mərkəzi Bankın mərkəzləşdirilmiş kreditlərinin həcmi bankların cəlb etdiyi kreditlərin cəmi 7 faizini təşkil edir. Bu da bankların vəsaitin 93 faizini kənardan cəlb etməsi deməkdir. Bu baxımdan kənar mənbələrin sayının çox olması cəlb edilən kredit resurslarının bahalı olmasına səbəb olur ki, son nəticədə kredit faizləri yüksəlir.

***Ramil QULİYEV***

# Özündə və ailə üzvündə koronavirus aşkarlanan abituriyentin imtahan nəticələrinin ləğvi düzgündürmü...

**"Hər imtahan binasının yanında həkimlər olacaq. Hər abituriyent imtahana gələrkən bəyannamə imzalayıb gətirəcək. Onlar bu bəyannamələri imtahana daxil olanda əməkdaşlara verməlidirlər. Bəyannamənin mətni açıqlanacaq.**

Sənəddə qeyd olunur ki, şagird və valideynlər bəyan edir ki, hazırda ailəsində koronavirus xəstəsi yoxdur və axırıncı 15 gündə bu cür xəstələrlə təmasda olmayıblar".

Bu fikirləri Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə IX və XI siniflər üzrə buraxılış imtahanlarına daxilolma qaydalarını açıqlayarkən deyib. Belə ki, imtahan iştirakçıları özləri ilə şəxsiyyəti təsdiq edən sənədlə yanaşı, "İmtahana buraxılış vərəqəsi" və "İmtahan iştirakçısının sağlamlığı" haqqında bəyannaməni gətirməlidirlər.

DİM sədrinin açıqlaması imtahan həyəcanı ilə yaşayan şagirdlərin və qarşıda qəbul imtahanlarına hazırlaşan abituriyentlərin və onların valideynlərinin narahatlığını daha da artırıb. Onlar DİM-in imtahan kampaniyası müddətində virusun yayılmasının qarşısını almaq məqsədilə imtahan binalarında bir sıra profilaktik tədbirlər həyata keçirilməsini - binaların və otaqların dezinfeksiyası, havalandırılması, müvafiq yerlərdə əl dezinfektantları üçün dispenserlərin quraşdırılması, hər bir otağa düşən iştirakçı sayının sosial məsafə prinsipinə uyğun şəkildə tənzimlənməsi, imtahan heyətinin müvafiq qoruyucu vasitələrlə təmin olunması və onların təlimatlandırılmasını nə qədər dəstəkləyirlərsə, bu tələbdən bir o qədər narazı qalıblar.

DİM-in bu qərarını həddindən artıq sərt hesab edən təhsil eksperti Kamran Əsədov bildirdi ki, qurumun pandemiya ilə əlaqədar həyata keçirdiyi qabaqlayıcı addımları təqdir edilməlidir. Ancaq imtahan günü qızdırması olan şagirdlərin imtahan keçirilən binalara buraxılmaması abituriyentlərə qarşı haqsızlıqdır: "İmtahan iştirakçılarının sağlamlığı və təhlükəsizliyi baxımından bu addımlar anlaşılan olsa da, mövcud vəziyyətdə bu qaydaların abituriyentlər arasında panika yaradacağı ehtimalı da nəzərə alınmalıdır. Şəxsən öz adıma koronavirus səbəbilə abituriyentlərin imtahanlara buraxılmaması və ya nəticələrinin ləğv edilməsinin düzgün olmadığını düşünürəm".

Həmsöhbətimiz onu da qeyd etdi ki, sağlam insanın hərarəti normada 36-36,5 aralığında olsa da, ani səbəblərdən 37-yə qalxa bilər. Əgər qolaltı ölçmədə subfebril hərarət (37.2-37.5) 1 həftə və daha artıq müddət müşahidə olunursa, bu artıq ciddi bir simptomların göstəricisi kimi qəbul olunur: "Arada bir qalxan temperatur narahatlıq üçün heç bir əsas vermir. Həm də ki, bu uşaqlar illərdir qəbul imtahanlarına hazırlaşırlar. Nə qədər maddi, mənəvi əziyyətləri olub. Adi bir qızdırma səbəbindən onların imtahana buraxılmaması ədalətli deyil. Hesab edirəm ki, DİM mövcud qərarını yumşaltmalı, müəyyən güzəştlər etməlidir. Xüsusən də nəzərə



***Adil Qeybulla:** "İlk növbədə, imtahan auditoriyalarının strukturunu dəyişmək lazımdır"*

***Kamran Əsədov:** "...adi bir qızdırma səbəbindən onların imtahana buraxılmaması ədalətli deyil"*

almaq lazımdır ki, indi yay aylarıdır. Havaların istiliyi bir yandan, digər yandan da şagirdlərin imtahan həyəcanı, uzun müddət tədris prosesindən kənar qalmanın verdiyi narahatlıq bədən temperaturunun müəyyən qədər qalxmasına səbəb ola bilər".

Ekspertin sözlərinə görə, bu gün ölkəmizdə 6 mindən çox adam koronovirusa yoluxub. Bu ən azı 6 min şagirdin qohumu, tanışı deməkdir. Hələ koronavirus daşıyıcı olub bundan xəbərsiz nə qədər insan var. Şagird hardan bilsin ki, onun təmasda olduğu adamda bu visus var, ya yox? K.Əsədov hesab edr ki, DİM bütün bu faktorları nəzərə almalı və abituriyentlərə qarşı bir az yumşaldıcı mövqe nümayiş etdirməlidir.

Həkim-ekspert Adil Qeybulla tibbi nöqteyi-nəzərdən bu tələbə haqq qazandırır və bunu pandemiya dövrünün şərti adlandırır: "Əgər karantin dövrü olmasaydı, mən də sağlamlıq haqqında bəyannamə tələbini təəccüblə qarşılayardım. Ancaq indi biz gecə-gündüz virusdan danışdığımız halda, bu cür sənəd tələbi normaldır. Söhbət hava-damcı yolu ilə keçən təhlükəli infeksiyadan - COVID-19-dan gedir. Bu virusa yoluxub-yoluxmamaqla bağlı abituriyentin əlində bir kağız olmalıdır. Yəqin ki, belə bir zərurət var. Çünki abituriyentlər, istənilən halda, auditoriyada oturacaqlar. Onlar imtahanı onlayn vermirlər, bir-birilə təmasda olacaqlar".

A.Qeybullanın fikrincə, ilk növbədə, imtahan auditoriyalarının strukturunu dəyişmək lazımdır. Belə ki, abituriyentlərin arasındakı məsafə 2 metrdən az olmamalıdır: "İstənilən halda, imtahan qapalı otaqda keçiriləcək. Bu da bir-birini yoluxdurmağa şərait yaradar. Hesab edirəm ki, imtahan otağına abituriyentin sağlam daxil olması mühüm amildir. Testdən keçdikdən sonra onun infeksiyaya yoluxmaması təsdiqlənir. Fikrimcə, burada hər hansı hüquqpozmadan söhbət gedə bilməz. Çünki karantin dövründə yaşayırıq və şərtlərə əməl etmək məcburiyyətindəyik".

***Günel CƏLİLOVA***

# Uşaq Psixologiya Mərkəzində koronavirus? - Qadın valideyn "Narınc"a qarşı iddialıdır

**Mətbuatda yayılan xəbərə görə, koronavirus testi pozitiv çıxan bir qadın virusa "Narınc" Uşaq Psixologiya Mərkəzinin "Gənclik" filialında yoluxduğunu deyib.**




***"Narınc" Uşaq Psixologiya Mərkəzi - Narınc Rüstəmova:** "Rəhbərlik etdiyim mərkəz tanınan yerdir və belə bir problem olsa, yoxlama aparılardı"*

Son 25 gündə şəxsi avtomobili ilə yalnız mərkəzə gedib-gələn, oradan başqa heç bir yerə getmədiyini deyən xanım, mərkəzdə pandemiya ilə bağlı nəzarətsizlik və şəraitsizliyin olduğunu bildirib: "Mənə deyirlər, "siz ayrı yerdə də yoluxa bilərsiniz". Necə ola bilər? Hansı yerdə? Öz maşınımla həftənin 6 günü bu mərkəzə gedib-gəlmişəm. Anam-atam yaşlı insanlardır, onların evinə gedib-gəlmirdim, qorxurdum. Onlar sağlamdır, bircə mən virusa yoluxmuşam".

Virusa yoluxan qadın iddia edir ki, mərkəzdə sanitar qaydalara əməl olunmur: "Uşaqlarını gözləyən valideynlər maskasız, sosial məsafəni gözləmədən toplaşırlar. Heç kimdən maska tələb olunmur. Qapıda hərarəti ölçən, əlləri dezinfeksiya edən işçi yoxdur. Övladımı orada masaj etdirirdim. Masaj otağı havasız, pəncərəsizdir, havalandırma sistemi işləmir.

Yaxşı olar ki, mərkəzi bağlayıb dezinfeksiya etsinlər. Gərək oraya gələnlərin yarısı yoluxsun? Bizə deyirlər, "şikayət etməyin, bura xəstə uşaqlar gəlir, mərkəzi bağlayarlar, günah olar". Bəs bu qədər uşağın, ananın ağır koronavirusla can çəkişməsi günah deyil? Mən elə o uşaqların ailəsini düşünüb bunu ictimaiyyətləşdirirəm. Mən yaşadım, siz yaşamayın. Bu, çox ağır xəstəlikdir".

Məsələ ilə bağlı "Narınc" Uşaq Psixologiya Mərkəzinin rəhbəri Narınc Rüstəmova ilə əlaqə saxladıq. O bu haqda danışmaq istəmədiyini bildirdi: "Bu haqda danışmağa lüzum görmürəm. Əks halda, özüm səhifəmizdən açıqlama yazardım.

Hazırda işdəyəm. Rəhbərlik etdiyim mərkəz tanınan yerdir və belə bir problem olsa, yoxlama aparılardı".

***Günel CƏLİLOVA***

№ 89 (4220) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

5 İYUN 2020-ci il

www.baki-xeber.com

# Çinin yeni teleskopu UNO axtaracaq



**Çin hökumətinin məlumatına görə, onlar sentyabrda yerdən kənar həyatın axtarışlarına başlayacaq.**

Bu məqsədlə xüsusi olaraq "FAST" (Five hundred meter Aperture Spherical Telescope - "500 metrlik aperturaya malik sferik radio teleskop") adlı yeni teleskop istifadəyə veriləcək. Dövlətə məxsus "Science and Technology Daily" nəşri yazır ki, artıq yanvarda qurğudan məhdud rejimdə istifadə edilməyə başlanılıb, amma sonra onun müasirləşdirilməsinə qərar verilib. Alimlər iddia edirlər ki, potensial UNO-ların axtarışında kömək edəcək əlavə maneələri aradan qaldırmağa nail olublar. "İctnews.az" bildirir ki, "FAST" radio teleskopunun diametri təxminən 500 metr təşkil edir. Ölkə hakimiyyəti sözügedən teleskopa 185 milyon dollardan çox vəsait xərcləyib, lakin son təkmilləşdirmələrə sərf edilən məbləğ açıqlanmır. Qurğu yerdən kənar həyatın axtarışından başqa alimlərə qalaktikaların formalaşması və təkamülünü, qaranlıq materiyanı, Kosmosda qaz vəziyyətində qlobal dəyişikliyin baş verdiyi reionizasiya dövrünü araşdırmağa kömək edəcək.

Tədqiqatçılar həmçinin bildiriblər ki, teleskopun sınaqları zamanı onlar artıq 102 yeni pulsar axtarıb tapıblar və bu, ABŞ və Avropa astronomları tərəfindən müvafiq dövrdə aşkar edilən göstəricidən çoxdur. Onların qiymətləndirmələrinə əsasən, "FAST" teleskopu oxşar qurğularla müqayisədə təxminən 2,5 dəfə daha həssasdır.

## Sosial şəbəkələr qaraya büründü

**ABŞ-ın Minneapolis şəhərində afroamerikalı Corc Floydun ölümündən sonra internet istifadəçiləri sosial şəbəkələri dəstək və həmrəylik məqsədilə istifadə etməyə davam edirlər.**




"Qafqazinfo" xəbər verir ki, iyunun 2-də "Blackout Tuesday" adı altında irqi ayrıseçkilik problemi haqqında məlumatlılığın artırılması kampaniyası keçirilib. Floydun öldürülməsindən sonra sosial şəbəkələrdə qara kvadrat şəkilləri yerləşdirilməyə başlanılıb. Paylaşımlar Tvitter, İnstaqram, TikTok, YouTube sosial şəbəkələrində və digər platformalarda yer alıb. Kampaniyaya "Nike", "Reebok", "Prada", "Armani", "L`Oreal", "Est?e Lauder" və s. dünyaca məşhur brendlər, eləcə də aktrisa Emma Stoun, müğənni Billi Ayliş və digər tanınmış şəxslər qoşulub.

## İsrail alimləri: "Siqaret çəkənlərin koronavirusa tutulma "şans"ı azdır"

**İsrail alimləri siqaret çəkənlərdə koronavirus risqini öyrənmək məqsədilə 3 milyon insan arasında COVİD-19 testindən keçənlərin nəticələrini yoxlayıb.**

"APA" bildirir ki, "Daily Mail"in ölkənin ən böyük tibbi xidmət təminatçısı olan "Clalit Health Services"ə istinadən xəbərinə görə, testdən keçən 114500 pasientin cəmi 4537 nəfərində nəticələr müsbət olub. Doktor Ariel İsrailin rəhbərlik etdiyi tədqiqatın nəticəsinə görə, nikotin həvəskarlarının koronavirusa tutulma "şans"ı, demək olar ki, iki dəfə az olub. Tədqiqat qrupunun rəhbəri araşdırmaların nəticələrini "heyrətamiz" adlandıraraq siqareti koronavirusa qarşı "əsl qoruyucu effekt" kimi qiymətləndirib. Qeyd edək ki, nikotinin koronavirusa təsirilə bağlı israilli həmkarları ilə razılaşmayan elm adamları da var. Məsələn, Çin və İngiltərədə alimlər hesab edirlər ki, siqaret çəkənlər koronavirusa yoluxsalar, bu xəstəliyi siqaret çəkməyənlərə nisbətən daha ağır formada keçirərlər. Onlar keçirdiyi tədqiqatlar zamanı İsrail alimlərinə nisbətən az nümunələrdən istifadə etsələr də, öz fikirlərində israrlıdırlar.



**Elan**

Heydərov Murad Şahbaba oğlunun adına, Xaçmaz rayonu, Xudat, 6-cı şöbə massivi ünvanında yerləşən torpaqlara verilmiş torpağın mülkiyyətə verilməsinə görə şəhadətnamələr (JN-041A, JN-041B kod 30202004) itdiyi üçün etibarsız sayılır.

Atamalı Xalıq oğlunun adına, Qaradağ rayonu, Lökbatan qəsəbəsi, 4-cü yaşayış massivi, keçid 9, 5 saylı fərdi yaşayış ünvanın qeydiyyat vəsiqəsi (Seriya FM N012476) və torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN-1965H, kod 00200026) itdiyi üçün etibarsız sayılır.

Ağayeva Günel Oktay qızının adına Elmlər Akademiyası tərəfindən verilmiş suğorta kartı itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Özünüzlə bağlı yaxşı fikrin formalaşmasına çalışın. Birlikdə çalışmağı düşündüyünüz insanlarla görüşərək danışıqlar aparmaq olar. İşgüzar təşəbbüsü unutmayın. İdeyalarınızı müzakirəyə çıxarın.



**Buğa** - Peşəkar fəaliyyət, biznes və kommersiya ilə bağlı mühüm qərarları qəbul etməyə dəyməz. İşgüzar intuisiyanız bu gün "korlaşıb". Çox asanlıqla səhvə yol verə bilərsiniz. Yaramaz insanların dəyərsiz məsləhətlərinə qulaq asmayın.



**Əkizlər** - Əlverişli və rahat gündür. Böyük uğurlara nail ola bilərsiniz. Yaşanan olayların əsas məqamlarını nəzərdən qaçırmasanız, adi günlərlə müqayisədə daha çox səhvlərə yol verməyəcəksiniz.



**Xərçəng** - Məqsədə doğru aparan yolda sədlər və maneələr var. Ruhdan düşməyin, bədbinliyə qapılmayın. Kimsəyə imkan verməyin ki, əhvalınızı pozsun. İşdə tapşırıqlar artır. Adi günlərlə müqayisədə işlər daha çox olacaq.



**Şir** - Yeni tərəfdaşlar və müttəfiqlər cəlb eləmək üçün əlverişli zamandır. İndiyədək sizə laqeyd yanaşan insanın rəğbətini qazana bilərsiniz. Dəvət aldığınız yerə qatılın. Diqqət mərkəzində olsanız, tələşa düşməyin.



**Qız** - Birmənalı olmayan gündür. Hər şey ilk baxışdan göründüyü qədər pis deyil. Yaşananları yalnız bədbin çalarlarda görərək situasiyanı neqativ dəyərləndirməyin. Kiçik itkilər, uğursuz alış-veriş və sərmayə ola bilər.



**Tərəzi** - Yaranmış situasiyanı təhlil edin. Baş verənlərlə bağlı düşünməyə dəyər. Qətiyyətli, iradəli addımlar və kəskin qərarlar zamanıdır. İntuisiyanız sizə işgüzar məsələlərin həllində tələskənliyə yol verməməyi deyir.



**Əqrəb** - İşgüzar münasibətlərlə şəxsi təmasları heç bir halda qarışdırmayın. Bu gün belə qarışıq partlayışa səbəb ola bilər. Peşəkar fəaliyyət müstəvisində yaranan çətin problemləri həll etmək imkanları var.



**Oxatan** - Əlverişli emosional fonu olan gündür. Əhvalınız pis olmayacaq. Ən çətin situasiyalarda belə, ruhdan düşməyin, nikbin qalın. Peşəkar fəaliyyətlə yanaşı, şəxsi həyatınızla bağlı məsələləri müzakirə etmək olar.



**Oğlaq** - Yaxşı xəbərlər alacaqsınız. Son vaxtlar nigaran qaldığınız insandan sizi sevindirəcək məlumat gələcək. Təşviş və təlaş geridə qalacaq. Pozitiv olun. Yaranan kiçik problemlərin öhdəsindən asanlıqla gələ bilərsiniz.



**Dolça** - Neytral gündür. Hadisələrin inkişaf məcrası sizdən və davranışınızdan asılıdır. Planetar maqnitlərin duruma təsiri olması barədə marazmatik iddialara inanmayın. Yeni təcrübə və bilik əldə etmək üçün əlverişli zamandır.



**Balıqlar** - İntuisiyanıza güvənsəniz, yaxşı və uğurlu gün olacaq. Ənənələri pozmağa, daşlaşmış qaydalar çərçivəsindən kənara çıxmağa çalışın. Yaxın ətrafınızdakı insanların dedikləri kimi yox, öz bildiyiniz kimi hərəkət edin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Yerə doğru təhlükəli asteroid yaxınlaşır

**Şənbə günü ölçüləri 250-570 metr olan və potensial təhlükə hesab edilən bir asteroid Yerə yaxınlaşacaq. APA xəbər verir ki, bu barədə NASA-nın tədqiqat bölmələrindən birinin saytında bildirilib.**



Asteroid planetimizlə ən yaxın məsafədən iyunun 6-da, Bakı vaxtı ilə saat 07:20-də keçəcək. Alimlər həmin vaxt onun Yerlə toqquşacağına dair proqnoz verməyiblər. Çünki səma cismi Ayın orbitindən 13 dəfə uzaq məsafədən keçəcək. Bununla yanaşı, asteroidin hərəkət trayektoriyası Yerin orbiti ilə kəsişdiyindən, o, ciddi təhlükə hesab olunur. Asteroid 2002-ci ildə aşkar olunub. Onun Günəş ətrafında bir dövrə vurması təxminən 300 Yer sutkasına bərabərdir.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.